# MƏKTƏBƏQƏDƏR TƏHSİL FAKÜLTƏSİNİN
# PASPORTU

2024 2025

ADPU 4-cü korpus - K.Rəhimov, 13A

LOQO..........................................................................................................2
DEKANIN MÜRACİƏTİ ..........................................................................................3
FAKÜLTƏNİN YARANMA VƏ İNKİŞAF TARİXİ ...............................................4
FAKÜLTƏ HAQQINDA ÜMUMİ MƏLUMAT
Məqsədimiz...................................................................................................8
Missiyamız....................................................................................................8
Viziyonumuz..................................................................................................9
**FAKÜLTƏ İXTİSASLARI VƏ TƏDRİS PROQRAMLARIMIZ**.........................9
Məktəbəqədər təlim və tərbiyə ixtisasının tədris planı.......................................11
Təhsildə sosial-psixoloji xidmət ixtisasının tədris planı.......................................13
Korreksiyaedici təlim ixtisasının tədris planı.....................................................15
Tələbənin fərdi tədris planı..............................................................................17
**FAKÜLTƏNİN İDARƏETMƏ STRUKTURU.......................................................18**
Dekan ..........................................................................................................18
Dekan müavini...............................................................................................20
Fakültə tyutorları............................................................................................21
Məktəbəqədər təhsilfakültəsinin təşkilati strukturu...........................................29
Məktəbəqədər təhsilFakültəsi Elmi Şurasının üzvlər.........................................30
**Məktəbəqədər təhsil FAKÜLTƏSİ İXTİSAS KAFEDRALARI**
Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrası..................................31
Pedaqoji psixologiya kafedrası..........................................................................33
Ümumi psixologiya kafedrası............................................................................35
Korreksiyaedici təlim kafedrası.........................................................................37
**STRATEJİ HƏDƏFLƏRİMİZ VƏ GƏLƏCƏK PLANLARIMIZ**.....................39
**NORMATİV HÜQUQİ AKTLAR, QAYDALAR VƏ ƏSASNAMƏLƏR**..........40
Məktəbəqədər təhsil Fakültəsi haqqında Əsasnamə.............................................42
Məktəbəqədər təhsil Fakültəsi Elmi Şurasının 2023/2024-cü tədris ili üçün iş planı.... ..............................................................................................................48
Psixoloji Xidmət Mərkəzinin Əsasnaməsi..........................................................46
Psixoloji - pedaqoji Xidmət Labotoriyası haqqında Əsasnamə...............................49
Məktəbəqədər təhsil fakültəsi 2023/2024 –cü tədris ili üçün akademik təqvim .......51

## DEKANIN MÜRACİƏTİ

Müasir təhsil sistemində baş verən dəyişiklikləri nəzərə alsaq görərik ki, pedaqoji kadrların hazırlanması zamanı yaranan problemlər gözlə görüləcək qədər narahatedicidir. Cəmiyyətdəki dəyişikliklər dünya standartlarına uyğunlaşdırıldığına görə təhsil sisteminin inkişafında da sürətli dəyişikliyə ehtiyac duyulur. Bu gün müəllim hazırlığı prosesinin müasir tələblərə cavab verəcək səviyyəyə qaldırılması, daha keyfiyyətli və yaradıcı işləmək qabiliyyətinə malik olan pedaqoji kadrların hazırlanması və bu hazırlığın müasirləşdirilməsi, beynəlxalq təcrübə və milli ənənələr əsasında məzmunun, strukturun optimallaşdırılması əsas ideyadır.

Gənc kadrların savadlı yetişməsi, şəxsiyyətin ahəngdar inkişafı ilk növbədə pedaqoji yönümlü kadrları yetişdirən universitetlərin üzərinə düşür. Pedaqoji ali məktəblərdə məzunların keyfiyyətli hazırlanmasını təmin edən əsas şərtlər, prosesə təsir göstərən faktorlar və keyfiyyətin əsas daşıyıcısı olan blok formasında qurulmuş konstruksiyalar mövcuddur. Bu halda keyfiyyət faktorları müvafiq modullar formasında təsbit edilir. Bu modulların işlənməsi kompetensiyalı pedaqoji heyətin sürətlə inkişafına imkan verən effektiv tədris sisteminin yaranması ilə nəticələnir. Buna görə də müəllim öyrənənin öyrədəni olmalıdır. Müasir müəllim hazırlığı aşağıdakı əsasda qurulmalıdır:

- səriştəli yanaşma;
- təhsilin çoxpilləliyi;
- təhsil proqramlarının varisliyi və variativliyi
- elm və təhsil prosesinin inteqrasiyası, tələbələrin fəal surətdə elmi - tədqiqatlara cəlb olunması
- müasir təlim texnologiyalarından istifadə olunması
- təlim-tərbiyə prosesinin yeni formaları və təhsilin keyfiyyətinin qiymətləndirilməsinin dünya birliyi tərəfindən qəbul edilmiş prinsiplər əsasında aparılması və s.

Müəllim öyrənənlərə öyrənməyin yolunu göstərməyi bacarmalıdır.

Dinamik dəyişən və inkişaf edən dünyamızda bütün digər sahələrdə olduğu kimi pedaqoji sahədə də bu dəyişikliklərin böyük təsirinə məruz qalırlar. Davamlı dəyişikliklərin yaşandığı belə bir şəraitdə kadrlarımız çalışdıqları yerdə daha faydalı ola bilmələri üçün bu gün artıq öz aktuallığını itirmiş metodları atıb, təlimin müasir texnologiyalarından, inteqrativ, yeni və daha mütərəqqi metodlarından istifadə etmələri zəruri və hətta məcburi olmuşdur. Elmdə, təhsildə olan innovasiyalar, dəyişikliklər onların düşüncə tərzlərində, tətbiq etdikləri strategiyalarda, idarəetmə metodlarında, istifadə etdikləri çalışma şəkillərində və daha bir çox məsələlərdə özünü açıq bir şəklidə göstərir. Bunun üçün isə pedaqoji heyətin iş keyfiyyətinin yüksəldilməsi və yetişdirilməkdə olan pedaqoji heyətin daha üstün biliklər verilərək yetişdirilməsi şərtdir. Əgər bu proses düzgün aparılsa cəmiyyətdə baş qaldırmış sosial və psixoloji gərginlik azalacaqdır.

Əziz tələbələr, qlobal dəyişiklik şəraitində dayanış gətirə bilmək üçün mövcud imkanlardan maksimum səviyyədə faydalanmağın yolunu tapmalıyıq. Bunun ən başlıca prinsipi isə özümüzə sərf etdiyimiz sərmayədir. Siz, dəyərli gənclərimiz, gələcəyin müəllimləri, təhsil işçiləri olaraq öz iş və kariyera hədəflərinizi həyata keçirməyə çalışmaqla yanaşı, ölkəmizin beynəlxalq aləmdə layiqli yerini tutması üçün də öz töhfənizi verməlisiniz. Buna görə fakültəmizin əsas məqsədi, harada işləməyindən asılı olmayaraq, mənimsədiyi elmi potensialı rahatlıqla praktikaya çevirə biləcək məzunlar hazırlamaqdır.

## FAKÜLTƏNİN YARANMA VƏ İNKİŞAF TARİXİ

Fakültə müstəqil olaraq 1982 - ci ildən fəaliyyət göstərir. Müstəqil fəaliyyətə başladığı dövrdən fakültə dekanı vəzifəsində dosent Eldar Abbaszadə (1982 - 1986), sonralar dosent Gülarə Qayıbova (1986 - 1987), professor Xəlil Fətəliyev (1987 - 1989), professor Məmməd Məmmədov (1989 - 1997-əyani), dosent Musa Həsənov (1989 - 1997-qiyabi), dosent Şəhla Əliyeva (1997 - 2001 əyani və qiyabi şöbələr vahid fakültə tərkibində birləşdirildi), dosent Allahverdi Hacıyev ( 2001 - 2011), dosent Şəhla Əliyeva (2011 - 2022) çalışmışlar.

2022 - ci ilin iyun ayından pedaqogika üzrə fəlsəfə doktoru, dosent Hüseynova Nailə Tofiq qızı Məktəbəqədər təhsil fakültəsinə rəhbərlik edir.

1996 - cı ilə qədər fakültədə yalnız bir – məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisası üzrə ali təhsilli kadr hazırlanırdı. 1996 - cı ildə korreksiyaedici pedaqogika və xüsusi psixologiya (məktəbəqədər) ixtisası açılmış və bir buraxılışı olmuşdur. Fakültədə bu illərdə tələbə sayı 291 nəfər idi. 1997 - ci ildə fakültənin nəzdinə Defektologiya ixtisası verildi, 1997 - 1998 - ci tədris ilində isə professor Əbdül Əlizadənin, professor Ərəstun Baxşəliyevin və professor Şəhla Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Psixologiya ixtisası açıldı. Bu dövrlər ərzində fakültədə görkəmli alimlər, tanınmış şəxsiyyətlər fəaliyyət göstərmişlər. Bunlardan professor Ə.Əlizadənin, professor M.Məmmədovun, professor Ə.Bəxşəliyevin, dosent Z.Mehdizadənin, dos.B.Paşayevanın, dosent R.Mursaqulovanın, dosent S.Cəmilzadənin, dosent Z.Vəliyevanın, dosent N.Rüstəmovanın, professor Ş.Əliyevanın, professor M.İlyasovun, professor R.Əliyevin, dosent N.Hüseynovanın və b. pedaqoji kadr hazırlığında müstəsna rollarını qeyd etmək olar.

Hazırda fakültədə 1490 nəfər tələbə təhsil alır

Fakültə Elmi Şurasının 23 nəfər üzvü var.

Fakültədə üç - Məktəbəqədər təhsil, Təhsildə sosial-psixoloji xidmət, Korreksiyaedici təlim ixtisasları üzrə kadr hazırlığı aparılır. Həmin ixtisaslara dair baza proqramları, dövlət standartları və tədris planları fakültədə hazırlanır. Hər üç ixtisas üzrə həm azərbaycan, həm də rus bölmələri fəaliyət göstərir .

2015 - ci ildə Universitet Elmi Şurasının qərarı və Universitet rektorunun əmri ilə Korreksiyaedici təlim ixtisasının aparıcı - Xüsusi təhsil kafedrası təşkil olundu.

2009 - 2010 - cu tədris ilindən fakültə ixtisasları kredit sistemi ilə təhsil alır. Bu müddət ərzində fakültənin bir çox uğurları olmuşdur.

ADPU - da keçirilən köklü islahatlar universitetdə, o cümlədən fakültədə tədrisin keyfiyyətinin yüksəlməsinə rəvac verib. Yeni tədris materiallarının hazırlanmasında müasir tələblərin nəzərə alınması, mühazirə və seminar məşğələlərinin yeni təlim texnologiyalarının əsasında aparılması və s. tələbələrin biliklərə yiyələnməsində önəmli rol oynayır. Tələbə qəbulunun inkişaf dinamikasını nəzərə alsaq ixtisaslara qəbul ballarının ilbəil artması müşahidə olunur. Bu da ondan xəbər verir ki, ADPU - nu, o cümlədən fakültəmizi seçənlər daha hazırlıqlı və tədrisin keyfiyyətindən əmin olan abituryentlərdir. Eyni zanada fakültənin hər üç ixtisasının tələb olunan peşə olması və rəqabət mühitinə davamlılığı səbəbindən bu ixtisaslara marağın daha da artmasına səbəb olmşdur.

İmtahan nəticələrinə nəzər yetirdikdə dinamik inkişaf çox aydın şəkildə özünü göstərir. Belə ki, tələbələrimizin imtahan nəticələrinin keyfiyyət faizi artan xəttə üzrə hərəkət edir.

2018/2019 - cu tədris ilində ADPU Elmi Şurası tərəfindən Ümummilli Lider Heydər Əliyev adına təsis olunmuş təqaüdə ilk olaraq universitet fakültələri arasında ən yüksək nəticə göstərərək fakültəmizin tələbəsi Qəribova Günay Akif qızı layiq görüldü. Bu da tədrisin keyfiyyətindən xəbər verən bir nümunədir. Fakültə üzrə Abdulla Şaiq adına təqaüd təsis olunmuşdur.

Fakültə ixtisaslarında azərbaycanlı tələbələrlə yanaşı əcnəbi tələbələr-Türkiyə Cümhuriyyətinin və Çin Xalq Respublikasının vətəndaşları da təhsil alır. Məktəbəqədər təhsil fakültəsində Məktəbəqədər təlim və tərbiyə ixtisas tələbələri uşaq bağçalarında, Təhsildə sosial-psixoloji xidmət ixtisası tələbələri ümumtəhsil məktəbləri və psixoloji mərkəzlərdə, Korreksiyaedici təlim ixtisası tələbələri isə xüsusi məktəblərdə, inklüziv məktəblərdə və reablitasiya mərkəzlərində pedaqoji təcrübə keçirlər.

"Loqopedlər" və "Gənc pedaqoq" tələbə dərnəkləri fəaliyyət göstərir.

Fakültədə Polşa Respublikasının Azərbaycandakı səfirliyi ilə əməkdaşlığının sayəsində "Uşaq İnkişaf Mərkəzi" yaradılmış və hazırda fəaliyyət göstərir. Tələbələr praktik məşğələlərdə bu vəsaitlərdən yararlanırlar. Xeyriyyə aksiyası olaraq ildə bir neçə dəfə ixtisas kafedrasının təcrübəli mütəxəssisləri tərəfindən xüsusi qayğıya ehtiyacı olan uşaqların diaqnostikası aparılır.

2018 – 2019 - cu tədris ilindən etibarən fakültənin nəzdində "Psixoloji Mərkəz" yaradılıb ki, burada "Ümumi psixologiya" və "Pedaqoji psixologiya" kafedrasının əməkdaşları Universitetin hər 5 tədris binasında tələbə və əməkdaşlara psixoloji xidmət göstərirlər.

Tədris ili müddətində fakültədə və ixtisas kafedralarında elmi seminarlar, dəyirmi masa və konfranslar keçirilir.

Fakültə əməkdaşlarının tərəfindən müvafiq sahələrdə fəaliyyət göstərən müəssisə və təşkilatlar üçün treninqlər və təlimlər keçirilir. Məktəbəqədər təhsilin pedaqogikası və Xüsusi təhsil kafedralarının əməkdaşları tərəfindən təlimlər keçirilir, təlimlərdə müvafiq müəssisələrdən əməkdaşlar iştirak edir, sertifikatlar təqdim olunur.

Fakültədə hər il TEC xətti ilə tələbə elmi tədqiqat işlərinə rəhbərlik edilir , konfranslar keçirilir və tezislər xüsusi toplu halında çap olunur.

Fakültə Türkiyənin Hacəttəpə Universiteti, Polşa Respublikasının Azərbaycandakı səfirliyi, Kopenhagen Universitet Kollec(UCC) ,Maksim Tank adına Belarus Dövlət Pedaqoqoji Universiteti, Özbəkistan Andican Universiteti, «Medeks» şirkəti, BDU, BSU, ATİ, Psixologiya Elmi-Tədqiqat İnstitutu, «Qayğı» ictimai birliyi, «Elit otizm» mərkəzi, "Cahan" holdinq , AMEA-nın Fəlsəfə institutu «Sosial psixologiya şöbəsi ilə, "Narıнc" psixologiya mərkəzi , "Ailə" Psixoloji xidmət və nitq inkişafı mərkəzi , Anadolu liseyi ilə əməkdaşlıq edir.

Fakültə tələbələri fakültənin ictimai həyatında fəal iştirak edirlər. TGT , THİK və YAP gənclər təşkilatı fəaliyyət göstərir. Tələbə təşkilatları fəalları və Sosial və humanitar işlər üzrə dekan müavini Səkinə İbrahimova tələbələrin asudə vaxtlarının səmərəli və maraqlı keçirilməsi üçün bir çox maraqlı tədbirlər təşkil edir, eyni zamanda universitetin və fakültənin ictimai həyatında yaxından iştirak edirlər.

Fakültə tələbələrinin böyük bir hissəsi könüllülər olaraq respublikada keçirilən tədbir və beynəlxalq yarışlarda fəllıq göstərirlər.

2016 - cı ildən etibarən keçirilən müəllim müsabiqələrində fakültə kafedralarına bir sıra gənc və savadlı kadrlar seçilmişdir ki, bu müəllimlər tələbələr tərəfindən sevilir, həm tədrisdə , həm də müxtəlif layihələrdə uğurlar qazanırlar.

2011 - 2012 ci tədris ilindən etibarən fakültə bir çox beynəlxalq layihələrdə iştirak edir. Fakültənin ixtisas kafedralarının əməkdaşları bu layihələrin işçi qruplarının üzvləri kimi fəaliyyət göstərirlər.

İlk dəfə 2011 - 2012 - ci tədris illərində Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, Dünyaya baxış təşkilatı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə inklüziv təhsilə dair pilot layihəsi həyata keçirilib. Layihə çərçivəsində 2011 - 2012 - ci tədris ilindən fakültənin hər üç ixtisasda "İnklüziv təhsil" fənni tədris olunmağa başladı.

2018 – 2020 - ci illərdə Avropa İttifaqının "Azərbaycanda vətəndaş cəmiyyətinin iştirakı ilə təhsil sisteminin müasirləşdirilməsi və inklüziv təhsilin tətbiqi" proqramı çərçivəsində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" və UNİCEF tərəfindən həyata keçirilən "Azərbaycanda əliliyi olan uşaqlar üçün inkluziv keyfiyyətli təhsilin genişləndirilməsi" layihələri üzrə ADPU - nun digər iştirakçı strukturları ilə yanaşı Məktəbəqədər təhsil fakültəsi, o cümlədən Xüsusi təhsil kafedrası layihənin iştirakçısı və fakültə əməkdaşları layihənin işçi qrup üzvləri kimi fəaliyyət göstərirlər. Layihə çərçivəsində ixtisasların tədris proqramları və dərs vəsaiti işlənib hazırlanmış, fakültə müəllimləri təlimçi kimi layihənin həyata keçirilmısində fəal iştirak edir, təlimlər aparırlar.

2019 - 2021 –ci illər üçün Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək" layihəsində fakültənin hər üç ixtisası iştirak etmiş, pilot olaraq Məktəbəqədər təlim və tərbiyə, Korreksiyaedici təlim və Təhsildə sosial-psixoloji xidmət ixtisaslarında sınaqlar keçirilmişdir. Fakültə dekanı, professor Şəhla Əliyeva, Xüsusi təhsil kafedrasının

müdiri dosent Nailə Hüseynova və Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müəllimi Xalidə Həmidova layihədə işçi qrup üzvləri olaraq Az.MKÇ-nin səviyyə deskriptorlarının rolu ilə tanış olmuş, modulları formalaşdırmış, təlim nəticələri və qiymətləndirmə meyarlarını, meyarlar əsasında qiymətləndirmə metodologiyalarını hazırlamışlar.

Fakültədə Ümummilli Lider Heydər Əliyevin anım günləri qeyd olununur. Heydər Əliyevin doğum gününə həsr olunmuş TEC konfransları keçirmək artıq bir ənənəyə çevrilib. Dövlət bayramları, önəmli tarixlər, milli bayramlar təntənəli şəkildə qeyd edilir.

Fakültə əməkdaşları təcrübə mübadiləsi çərçivəsində və həyata keçirilən layihələrlə əlaqədar bir sıra xarici ölkələrə səfər etmişlər. Nailə Hüseynovanın Belarus respublikasına, Portuqaliyaya, Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müəllimi Xalidə Həmidovanın ABŞ - ın Azərbaycandakı səfirliyinin dəstəyi ilə ABŞ - a (Vaşinqton və Meçiqan ştatlarına) , Xüsusi təhsil kafedrasının müəllimi Ş.Kazımovanın, Pedaqoji psixologiya kafedrasının müəllimi K.İsmayılovanın, Ümumi psixologiya kafedrasının müəllimi S.Əlizadənin Portuqaliyaya səfərləri bu qəbildəndir.

Fakültə müəllim və tələbələri tərəfindən mütəmadi olaraq xeyriyyə aksiyaları keçirilir. Bu artıq bir həyat tərzinə çevrilmişdir. Tələbələrimiz bayramlarda ehtiyacı olan ailələrə, uşaq evlərinə, kimsəsizlərə, qocalar evinə gedirlər. Bayramları bu insanlarla qeyd edirlər. Məktəbəqədər təlim və tərbiyə ixtisası tələbələrinin əl işlərindən ibarət sərgilər təşkil olunur. Eksponatların satışı keçirilib və bu vəsaitlər də xeyriyyə məqsədilə istifadə olunur. Bu aksiyaların keçirilməsində əsas məram və məqsəd gənclərimizdə insanpərvərlik, bölüşmə, humanizm kimi keyfiyyətləri möhkəmləndirməkdir.

Fəaliyyətə başladığı gündən etibarən fakültədə respublikanın məktəbəqədər təhsil müəssisələri, ümumtəhsil məktəbləri, xüsusi və inteqrativ məktəb, inteqrativ məktəbəqədər təhsil müəssisələri üçün xeyli sayda ali təhsilli tərbiyəçilər, praktik psixoloqlar və korreksion pedaqoqlar hazırlanmışdır. Tələbələrimiz respublikanın həm dövlət , həm də özəl psixoloji və reabilitasiya mərkəzlərində uğurla çalışırlar.

Fakültədə dekan müavini İsgəndərova Südabədir.

Fakültədə tyütorlar Səkinə İbrahimova, Cəvahir Məmmədova, Kəmalə Hacızadə, Nigar Ələkbərli, Ləman Hüseynli, İlahə Quliyeva, Nərgiz Əliyeva, Gülyaz Əbilhəsənli, Şəhanə Məmmədli, Gülşən Əliyeva, Rəna Əhmədova və Maral Abuzərli fəaliyyət göstərir.

Fakültənin elmi potensialı ildən - ilə, yeni elmi qüvvələrin hesabına artmaqdadır. 103 nəfər professor - müəllim heyətinin 6 nəfəri elmlər doktoru, professor; 1 nəfəri elmlər doktoru; 19 nəfəri dosent; 12 nəfər fəlsəfə doktorundan 1 nəfəri professor; 11 nəfər fəlsəfə doktorundan 11 nəfəri baş müəllim; 2 nəfəri fəlsəfə doktoru müəllim; 9 nəfəri baş müəllim; 56 nəfəri müəllim kimi çalışır.

Fakültə 2018, 2019 - cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində professor - müəllim heyətinin, kafedraların və fakültələrin illik fəaliyyətinin reytinq qiymətləndirməsində ilk üçlükdə yer alıb.

Son 10 ildə fakültə əməkdaşları məktəbəqədər təhsilin pedaqogikası, ümumi və pedaqoji psixologiya, xüsusi təhsillə bağlı 236 beynəlxalq və 236 respublika konfransında çıxışlar etmiş, 37 monoqrafiya, 16 dərslik, 69 dərs vəsaiti, 1019 məqalə və 268 proqram nəşr etdirmişlər. Məqalələrdən 34 - ü impakt faktorlu jurnallarda nəşr edilmişdir.

Magistratura səviyyəsində hər üç ixtisas üzrə mağistrantlar təhsil alır. İxtisas kafedralarında müvafiq ixtisas üzrə fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktorant və dissertantlarlar hazırlanır, dissertasiya işləri üzərində çalışırlar.

2015/16 - cı tədris ilindən hər üç ixtisas üzrə rus bölməsi açılmışdır.

İxtisaslara dair baza proqramları, dövlət standartları və tədris planları fakültədə hazırlanmışdır.

Hazırda Məktəbəqədər təhsil fakültəsində ali təhslin bakalavr pilləsi üzrə 1490 nəfər təhsil alır onlardan 17 əcnəbidir. Magistratura səviyyəsində müxtəlif ixtisas və ixtisaslaşmalar doktorant və dissertantlar təhsil alır.

Məktəbəqədər təlim və tərbiyə

Təhsildə sosial-psixoloji xidmət

Korreksiyaedici təlim

**Fakültədə 4 ixtisas kafedrası fəaliyyət göstərir**:

1.Məktəbəqədər təhsilin pedaqogikası

2.Ümumi psixologiya kafedrası

3. Pedaqoji psixologiya kafedrası

4.Xüsusi təhsil kafedrası

**Məqsədimiz**

Məqsədimiz yüksək təhsil və ən yüksək səviyyəli pedaqoji kadrlar yetişdirməklə cəmiyyətə müsbət töhfələr verməkdir. Biz çalışırıq:

- Tələbələrimiz üçün ən yüksək keyfiyyətli tədris və təlim mühiti yaradaq.
- Universitetinən aparıcı fakültəsi kimi mövqeyimizi gücləndirək və nüfuzumuzu artıraq.
- Şəxsi və peşəkar sahədə yüksək standartlara nail olmaq üçün tam təminatlı iş qabiliyyətinə malik məzunlar yetişdirək.
- Elmi tədqiqatlara həvəsləndirici və təkanverici qüvvə olaq.
- Respublikanın maraqlarını təmin edə biləcək mütəxəssislər yetişdirməklə Azərbaycanın elmi, pedaqoji, sosial və siyasi inkişafına dəstək olaq.

**Missiyamız**

Azərbaycan Dövlət Pedaqoji Universiteti Məktəbəqədər təhsil fakültəsinin kollektivi olaraq ömürlük bilik və bacarıqların qazanılmasına uzunmüddətli perspektiv və çoxşaxəli imkanlar yaradırıq. Məktəbəqədər təhsil fakültəsi olaraq missiyamız tələbələrimizə pedaqoji sahədə ən yaxşı təhsili və ən müasir bilikləri verərək , məzunlarımızın kariyera imkanlarından faydalanmaları üçün lazımi bilik və qabiliyyətlər əldə etmələrini təmin etmək və rəqabətə davamlı təhsil bazası yaratmaqdır.

Fakültə təhsildə uğurun, elm və praktikanın vəhdətinin təməl meyarları olan davamlı öyrənmə və inkişaf mühiti formalaşdırmaq, sosial məsuliyyət anlayışı, yüksək, yenilikçi və müstəqil fikir sahibi olan fərdlər və təhsil sahəsində uğurlar əldə edəcək ali təhsilli pedaqoji kadrlar yetişdirmək üçün yaradılmışdır.

## VİZİYONUMUZ

Bu gün daha çox tələbat olan üç ixtisası özündə birləşdirən Məktəbəqədər təhsil fakültəsinin viziyonu ölkə və regional səviyyədə tanınan, təhsil sahəsində güclü əlaqələr qurub, yüksək təhsil standartına sahib olan, fəaliyyət göstərdiyi sahədə tanınan, müxtəlif təşkilatlar tərəfindən qəbul edilən, liderlik mövqeyini gücləndirən və məzunlarının göstərdiyi uğurlu fəaliyyətə görə işverənlər tərəfindən tələb olunan ixtisaslara malik fakültə olmaqdır.

## FAKÜLTƏ İXTİSASLARI VƏ TƏDRİS PROQRAMLARIMIZ

Məktəbəqədər təhsil fakültəsində hazırda bakalavriat pilləsində üç, magistratura səviyyəsində üç ixtisas üzrə mütəxəssis hazırlığı davam etdirilir.

Fakültənin **Məktəbəqədər təhsil (Məktəbəqədər təhsil)** ixtisası üzrə kadr hazırlığına 1921 - ci ildə başlanılmışdır. Fasilələr olmuş və müxtəlif illərdə digər fakültələrin tərkibində fəaliyyət göstərmiş 1982 - ci ildən müstəqil fakültə şəklində fəaliyyət göstərməyə başlamışdır. Sonralar fakültəyə müxtəlif ixtisaslar daxil edilmişdir. Keçən bu müddət ərzində bu ixtisasları bitirən məzunlarımız hazırda dövlət və özəl müəssisələrdə fəaliyyəti göstərirlər . Hazırda bu ixtisas üzrə fakültədə 506 tələbə təhsil alır.

Fakültənin **Təhsildə sosial - psixoloji xidmət** ixtisasında mütəxəssis hazırlığına 1996/1997 - ci tədris ilindən başlanmışdır. 2009 - cu tədris ilinə qədər "Psixologiya" ixtisası kimi fəaliyyət göstərmişdir. 2009 - cu ildən "Təhsildə sosial - psixoloji" xidmət ixtisası üzrə kadr hazırlanır. Hazırda bu ixtisas üzrə fakültədə 535 tələbə təhsil alır.

1996 - cı ildən 2009 - cu ilə kimi fakültədə "Defektologiya" ixtisası üzrə kadr hazırlığı aparılımışdır. 2009 - cu ildən etibarən ixtisas **"Korreksiyaedici təlim"** ixtisası ilə əvəz olunmuşdur. Hazırda bu ixtisas üzrə fakültədə 449 tələbə təhsil alır.

**Fakültədə bakalavr hazırlığı üzrə üç ixtisas fəaliyyət göstərir:**

Məktəbəqədər təhsil ixtisası.

Təhsildə sosial-psixoloji xidmət ixtisası.

Korreksiyaedici təlim ixtisası.

Hazırda fakültəmizin fəaliyyət istiqamətinə müasir pedaqoji kadr hazırlığının əsas ixtisaslaşmaları olan "Məktəbəqədər təhsil", "Təhsildə sosial-psixoloji xidmət" və "Korreksiyaedici təlim" ixtisasları daxil edilmiş, bu sahədə ehtiyac olan bütün itisaslar üzrə kadr hazırlığını təmin etmək məqsədilə də gələcək perspektivdə müxtəlif konkret ixtisaslaşmalar üzrə kadrların hazırlanması nəzərdə tutulmuşdur.

Nəticə etibarı ilə isə tədris proqramlarımız tələbələrimizin hərtərəfli düşünmə, mürəkkəb elmi və praktik məsələlərini həll etmə və doğru qərar vermə bacarıqlarını

sistemli bir şəkildə inkişaf etdirmə və müasir tələblərə uyğun nəzəri və təcrübi biliklərlə tam təchiz edilmələrinə imkan yaratmaqdadır.

Bu məqsədlə də nəzəri fənlər və metodikalardan ibarət olan tədris planımız müvafiq ixtisasların bütün əsas sahələrini əhatə edən fənlərin sintezindən təşkil olunmuşdur. Bununla da məqsədimiz gələcək məzunlarımızın seçdikləri peşə sahəsində qarşıya çıxan məsələləri təhlil etmək, araşdırma aparmaq, gələcəyi görə bilmək və lazım gəldiyində zamanında doğru qərar verə bilmək bacarıqlarının formalaşdırılması, habelə onların lazımlı informasiya və bacarığa yiyələnmələrinə nail olmaq üçün elmi bir infrastruktur yaratmaqdır. Çünki məqsədimiz tələbələrimizi məzun olduqdan sonra arzu və qabiliyyətlərinə görə dövlət və özəl sektorlarda çalışa bilmələri üçün hazırlamaq və təhsilini magistratura və doktorantura səviyyəsində davam etdirmək istəyənlərə bir psixoloq, korreksion pedaqoq və tərbiyəçi, ali təhsilli mütəxəsisə lazım ola biləcək elmi və praktiki bilgilər verməkdir.

Qloballaşan dünyamızda bütün sahələrdə olduğu kimi təhsildə də yeni baxış tərzini inkişaf etdirmək məcburi hala gəlmişdir. Çünki günümüzün müəllimi, pedaqoji məsələlərini deyil, eyni zamanda elmin bir çox sahələrini və öz ana dilindən başqa xarici dili də bilməyə məcburdur.

Bu düşüncə ilə "Məktəbəqədər təhsil" fakültəsi tələbələrinə müasir tələblərə cavab verə biləcək keyfiyyətli bir pedaqoji təhsil vermək kimi çox mürəkkəb və məsuliyyətli bir vəzifəni öhdəsinə götürmüşdür. Bu vəzifənin öhdəsindən gəlmək üçün də fakültəmizin tədris proqramlarına elmin, bir çox müvafiq sahələrini əhatə edən çeşidli fənlər daxil edilmişdir.

# Məktəbəqədər təlim və tərbiyə ixtisasının tədris planı Əyani 2020

| Sıra № | Fənnin şifri | Fənlərin adı | Kredit sayı | Ümumi saatlar | Auditoriyadan kənar saatlar | Auditoriya saatı | O cümlədən | | | Prerekvizit (öncə tədrisi zəruri olan fənlərin şifri) | Fənnin tədrisi nəzərdə tutulan semestr (payız və yaz) | Həftəlik dərs yükü |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Mühazirə | Seminar məşğələ | Praktik məşğələ | | | |
| **I** | **ÜF-B00** | **Ümumi fənlər** | **30** | **900** | **570** | **330** | **75** | **90** | **165** | | | |
| 1 | ÜF-B01 | Azərbaycan tarixi | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 1 | 4 |
| 2 | ÜF-B02 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 120 | 75 | 45 | 15 | 30 | | | Yaz - 2 | 3 |
| 3 | ÜF-B03.1. | Xarici dildə işgüzar və akademik kommunikasiya - 1 | 7 | 210 | 135 | 75 | | | 75 | | Yaz - 2 | 5 |
| 4 | ÜF-B03.2. | Xarici dildə işgüzar və akademik kommunikasiya - 2 | 8 | 240 | 150 | 90 | | | 90 | ÜF-B03.1. | Payız - 3 | 6 |
| | ÜF-B04 | **Seçmə fənn** | | | | | | | | | | |
| 5 | ÜF-B04.1. | **Blok 1** 1.Fəlsəfə; 2.Məntiq; 3.Sosiologiya | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Yaz - 4 | 2 |
| 6 | ÜF-B04.2. | **Blok 2** 1. Politologiya; 2. İnformasiyanın idarə edilməsi; 3. Sahibkarlığın əsasları və biznesə giriş. | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Yaz - 4 | 2 |
| **II** | **İF-B00** | **İxtisas fənləri** | **120** | **3600** | **2280** | **1320** | **705** | **585** | **30** | | | |
| 7 | İF-B01 | Pedaqogika * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yazn - 2 | 4 |
| 8 | İF-B02 | Psixologiya * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 1 | 3 |
| 9 | İF-B03 | Təhsildə İKT | 5 | 150 | 90 | 60 | 30 | | 30 | | Payız - 1 | 4 |
| 10 | İF-B04 | Multikulturalizmə giriş | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Yaz - 2 | 2 |
| 11 | İF-B05 | Məktəbəqədər pedaqogika * | 7 | 210 | 120 | 90 | 45 | 45 | | | Payız - 3 | 6 |
| 12 | İF-B06 | Sosial pedaqogika | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 4 | 4 |
| 13 | İF-B07 | Uşaq psixologiyası * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 2 | 4 |
| 14 | İF-B08 | Pedaqoji psixologiya * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz - 4 | 3 |
| 15 | İF-B09 | Azərbaycan dili | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 1 | 4 |
| 16 | İF-B10 | Uşaq ədəbiyyatı | 5 | 150 | 105 | 45 | 15 | 30 | | | Payız - 1 | 3 |
| 17 | İF-B11 | Uşaq anatomiyası, fiziologiyası və gigiyenası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 1 | 4 |
| 18 | İF-B12 | Məktəbəqədər təhsil müəssisələrində təsviri fəaliyyət və və onun tədrisi metodikası * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz - 6 | 3 |
| 19 | İF-B13 | Məktəbəqədər təhsil müəssisələrində musiqi və onun tədrisi metodikası * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 7 | 3 |
| 20 | İF-B14 | Məktəbəqədər təhsil müəssisələrində məntiqi və riyazi təfəkkürün inkişafı metodikası * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 5 | 4 |
| 21 | İF-B15 | Ətrafaləmlə tanışlığın metodikası * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 22 | İF-B16 | Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı metodikası * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| 23 | İF-B17 | Məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| 24 | İF-B18 | Məktəbəqədər təhsil müəssisələrində əmək və onun tədrisi metodikası * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 25 | İF-B19 | Məktəb təliminə hazırlığın əsasları | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 5 | 3 |
| 26 | İF-B20 | İnklüziv təhsil | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 5 | 4 |
| 27 | İF-B21 | Məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi və ona rəhbərlik | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 7 | 3 |
| 28 | İF-B22 | Məktəbəqədər təhsilin inkişaf tarixi | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 3 | 4 |
| 29 | İF-B23 | Məktəbəqədər təhsildə pedaqoji texnologiyalar və ionnovasiyalar * | 4 | 120 | 75 | 45 | 30 | 15 | | | Yaz - 4 | 3 |
| 30 | İF-B24 | Mülkü müdafiə və ilkin tibbi yardım | 6 | 180 | 120 | 60 | 30 | 30 | | | Yaz - 2 | 4 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **III** | **ATMF-B00** | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | **60** | **1800** | **1140** | **660** | **360** | **300** | | | | |
| 31 | ATMF-B01 | **I Blok**<br>1.Tərbiyəçi müəllimin peşə etikası;<br>2.Tərbiyəçi müəllimin pedaqoji ustalığı | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 3 | 3 |
| 32 | ATMF-B02 | **II Blok**<br>1.Uşaq oyunlarının təşkili metodikası;<br>2.Məktəbəqədər yaş dövründə oyunlar və oyuncaqlar. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 33 | ATMF-B03 | **III Blok**<br>1. Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı;<br>2. Məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişaf | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| 34 | ATMF-B04 | **IV Blok**<br>1. Tərbiyəçi işinin nəzəri və tətbiqi xüsusiyyətləri;<br>2. Məktəbəqədər təhsil müəssisələrində ailələrlə işin təşkili | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 5 | 3 |
| 35 | ATMF-B05 | **V Blok**<br>1. Məktəbəqədər yaşlı uşaqıarda humanizm tərbiyəsi.<br>2. Uşaq hüquqlarının müdafiəsi və sağlamlığının qorunması | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 3 | 3 |
| 36 | ATMF-B06 | **VI Blok**<br>1. Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici mühitin təşkili;<br>2. Məktəbəqədər yaşlı uşaqların ailədə milli tərbiyə məsələləri | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 5 | 4 |
| 37 | ATMF-B07 | **VII Blok**<br>1.Xüsusi pedaqogika;<br>2.Məktəbəqədər yaşlı uşaqlarla loqopedik işin təşkili; | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 4 | 4 |
| 38 | ATMF-B08 | **VIII Blok**<br>1. Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi;<br>2. Məktəbəqədər təhsil proqramları | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 5 | 4 |
| 39 | ATMF-B09 | **IX Blok**<br>1.Məktəbəqədər təhsildə əqli tətbiyə və əqli inkişaf məsələləri; 2.Məktəbəqədər yaşlı uşaqların idraki inkişafı | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| 40 | ATMF-B10 | **X Blok**<br>1. Məşğələlərin təşkili və qrupların idarə olunması;<br>2. Məktəbəqədər təhsildə uşaq inkişafının izlənməsi və dəyərləndirilməsi | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 41 | ATMF-B11 | **XI Blok**<br>1. Məktəbəqədər təhsil müəssisələrində bayramların təşkili və teatrlaşdırma fəaliyyəti;<br>2. Məktəbəqədər yaşlı uşaqların estetik-yaradıcı inkişafı | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz - 6 | 3 |
| 42 | ATMF-B12 | **XII Blok**<br>1. Etnopedaqogika;<br>2. Məktəbəqədər təhsil müəssisələrində fəaliyyətin planlaşdırılması | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 4 | 4 |
| **IV** | | **Pedaqoji internatura** | **30** | | | | | | | Ulduzla işarələnmiş fənlər | Yaz - 8 | |
| | | **Cəmi:** | **240** | **6300** | **3990** | **2310** | **1140** | **1140** | **30** | | | |

-

## Təhsildə sosial-psixoloji xidmət ixtisasının tədris planı Əyani 2020

| Sıra № | Fənnin şifri | Fənlərin adı | Kredit sayı | Ümumi saatlar | Auditori yadan kənar saatlar | Auditoriya saatı | O cümlədən | | | Prerekvizit (öncə tədrisi zəruri olan fənlərinşifri) | Fənnin tədrisi nəzərdə tutulan semestr (payız və yaz) | Həftəlik dərs yükü |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Mühazirə | Seminar məşğələ | Praktik məşğələ | | | |
| **I** | **ÜF-B00** | **Ümumi fənlər** | **30** | **900** | **570** | **330** | **75** | **90** | **165** | | | |
| 1 | ÜF-B01 | Azərbaycan tarixi | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız – 1 | 4 |
| 2 | ÜF-B02 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 120 | 75 | 45 | 15 | 30 | | | Yaz - 2 | 3 |
| 3 | ÜF-B03.1. | Xarici dildə işgüzar və akademik kommunikasiya - 1 | 8 | 240 | 150 | 90 | | | 90 | | Payız – 3 | 6 |
| 4 | ÜF-B03.2. | Xarici dildə işgüzar və akademik kommunikasiya - 2 | 7 | 210 | 135 | 75 | | | 75 | ÜF-B03.1. | Yaz – 4 | 5 |
| | **ÜF-B04** | **Seçmə fənn** | | | | | | | | | | |
| 5 | ÜF- B04.1. | Blok 1.<br>1.Fəlsəfə; 2.Məntiq;<br>3.Sosiologiya | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Payız – 3 | 2 |
| 6 | ÜF- B04.2. | Blok 2. 1.Politologiya;<br>2. İnformasiyanın idarəedilməsi;<br>3. Sahibkarlığın əsasları və biznesə giriş. | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Yaz - 4 | 2 |
| **II** | **İF-B00** | **İxtisas fənləri** | **120** | **3600** | **2280** | **1320** | **720** | **57** | **30** | | | |
| 7 | İF-B01.1 | Pedaqogika - 1 | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz-2 | 4 |
| 8 | İF-B01.2 | Pedaqogika - 2 | 4 | 120 | 75 | 45 | 30 | 15 | | İF-B01.1 | Payız-3 | 3 |
| 9 | İF-B02 | Psixologiyanın əsasları | 7 | 210 | 120 | 90 | 45 | 45 | | | Payız – 1 | 6 |
| 10 | İF-B03 | Təhsildə İKT | 5 | 150 | 90 | 60 | 30 | | 30 | | Payız – 3 | 4 |
| 11 | İF-B04 | Multikultarizmə giriş | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Payız – 1 | 2 |
| 12 | İF-B05 | Eksperimental psixologiya | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız-3 | 4 |
| 13 | İF-B06 | Psixi sağlamlıq | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz-6 | 3 |
| 14 | İF-B07 | Sosial psixologiya | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız-5 | 4 |
| 15 | İF-B08 | Sosial pedaqogika | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz – 4 | 4 |
| 16 | İF-B09 | Psixoanaliz | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız – 7 | 4 |
| 17 | İF-B10 | Pedaqoji psixologiya | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız – 1 | 3 |
| 18 | İF-B11 | Klinik psixologiya | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız – 5 | 3 |
| 19 | İF-B12 | Psixologiyanın tədrisi metodikası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz – 6 | 4 |
| 20 | İF-B13 | İnklüziv təhsil | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz – 6 | 4 |
| 21 | İF-B14 | Təhsildə sosial-psixoloji xidmət və psixoloji praktikum | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz – 6 | 4 |
| 22 | İF-B15 | Psixodiaqnostika və psixokonsultasiya | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz – 4 | 3 |
| 23 | İF-B16 | Uşaq anatomiyası, fiziologiyası və gigiyenası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız – 1 | 4 |
| 24 | İF-B17 | Təhsil sisteminin və layihələrin idarə edilməsi | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız – 7 | 3 |
| 25 | İF-B18 | Ailə və gender psixologiyası | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz – 2 | 3 |
| 26 | İF-B19 | Şəxsiyyət və fəaliyyət psixologiyası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız – 7 | 4 |
| 27 | İF-B20 | İnkişaf və yaş psixologiyası | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız – 1 | 3 |
| 28 | İF-B21 | Psixofiziologiya | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 2 | 4 |
| 29 | İF-B22 | Uşaq psixologiyası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz – 2 | 4 |
| 30 | İF-B23 | Mülkü müdafiə və ilkin tibbi yardım | 6 | 180 | 120 | 60 | 30 | 30 | | | Yaz – 2 | 4 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| III | ATMF- B00 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | **60** | **1800** | **1140** | **660** | **345** | **315** | | | | |
| 31 | ATMF- B01 | 1.Ailənin psixoterapiyası;<br>2.Koqnitiv və geştat psixologiyası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 32 | ATMF- B02 | **II Blok**<br>1. İdarəetmə və menecment psixologiyası;<br>2. Test psixologiyası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 5 | 4 |
| 33 | ATMF- B03 | **III Blok**<br>1. Peşə etikası;<br>2. Psixologiya tarixi | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 3 | 3 |
| 34 | ATMF- B04 | **IV Blok**<br>1. Məhdudimkanlı uşaqların psixologiyası;<br>2. Siyasi psixologiya | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 5 | 4 |
| 35 | ATMF- B05 | **V Blok**<br>1.Psixoloji konsilimlar və treninq;<br>2.Təhsildə psixoloji xidmətin aktual sosial-psixoloji məsələləri | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz – 4 | 4 |
| 36 | ATMF- B06 | **VI Blok**<br>1. Psixologiyada riyazi metodlar;<br>2. Tərbiyə psixologiyası. | 5 | 150 | 105 | 45 | 15 | 30 | | | Payız – 7 | 3 |
| 37 | ATMF- B07 | **VII Blok**<br>1. Ünsiyyət və münasibətlərin psixologiyası;<br>2. Qrup psixologiyasının tətbiqi problemləri | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız – 7 | 4 |
| 38 | ATMF- B08 | **VIII Blok**<br>1. İstedadlı uşaqların psixologiyası;<br>2. Etnopsixologiya | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız – 7 | 4 |
| 39 | ATMF - B09 | **IX Blok**<br>1.Psixopedaqogika;<br>2.Lider psixologiyası | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz – 6 | 3 |
| 40 | ATMF- B10 | **X Blok**<br>1. Eksperiment şəraitlərdə psixoloji xidmət;<br>2. Şəxsiyyətlərarası konfliktlərin psixologiyası | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz – 4 | 4 |
| 41 | ATMF- B11 | **XI Blok**<br>1. Humanist psixologiya;<br>2. Qrup və fəaliyyət psixologiyası | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız – 5 | 3 |
| 42 | ATMF- B12 | **XII Blok**<br>1.Psixoloji maarifləndirmə;<br>2.Psixokorreksiya | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız – 5 | 4 |
| IV | | **Pedaqoji internatura** | **30** | | | | | | | İF-B02<br>İF-B05<br>İF-B12<br>İF-B14 | Yaz - 8 | |
| | | **Cəmi:** | **240** | **6300** | **3990** | **2310** | **1140** | **975** | **195** | | | |

## Korreksiyaedici təlim ixtisasının tədris planı Əyani 2020

| Sıra № | Fənnin şifri | Fənlərin adı | Kredit sayı | Ümumi saatlar | Auditoriyadan kənar saatlar | Auditoriya saatı | O cümlədən: Mühazirə | O cümlədən: Seminar məşğələ | O cümlədən: Praktik məşğələ | Prerekvizit (öncə tədrisi zəruri olan fənlərin şifri) | Fənnin tədrisi nəzərdə tutulan semestr (payız və yaz) | Həftəlik dərs yükü |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **I** | **ÜF-B00** | **Ümumi fənlər** | **30** | **900** | **570** | **330** | **75** | **90** | **165** | | | |
| 1 | ÜF-B01 | Azərbaycan tarixi | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 1 | 4 |
| 2 | ÜF-B02 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 120 | 75 | 45 | 15 | 30 | | | Payız - 1 | 3 |
| 3 | ÜF-B03.1 | Xarici dildə işgüzar və akademik kommunikasiya - 1 | 7 | 210 | 135 | 75 | | | 75 | | Yaz - 2 | 5 |
| 4 | ÜF-B03.2 | Xarici dildə işgüzar və akademik kommunikasiya - 2 | 8 | 240 | 150 | 90 | | | 90 | ÜF-B03.1 | Payız - 3 | 6 |
| | **ÜF-B04** | **Seçmə fənlər** | | | | | | | | | | |
| 5 | ÜF-B04.1 | **I Blok**<br>1.Fəlsəfə; 2.Sosiologiya<br>3.Azərbaycan respublikasının konstitusiyası və hüququn əsasları<br>4.Məntiq; 5.Etika və estetika | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Yaz - 6 | 2 |
| 6 | ÜF-B04.2 | **II Blok**<br>1. Politologiya 2.İnformasiyanın idarə edilməsi 3. Sahibkarlığın əsasları və biznesə giriş | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Payız - 5 | 2 |
| **II** | **İF-B00** | **İxtisas fənləri** | **120** | **3600** | **2280** | **1320** | **735** | **555** | **30** | | | |
| 7 | İF-B01 | Pedaqogika * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 2 | 4 |
| 8 | İF-B02 | Psixologiya * | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 1 | 4 |
| 9 | İF-B03 | Təhsildə İKT | 5 | 150 | 90 | 60 | 30 | | 30 | | Payız - 1 | 4 |
| 10 | İF-B04 | Multikulturalizmə giriş | 3 | 90 | 60 | 30 | 15 | 15 | | | Yaz - 2 | 2 |
| 11 | İF-B05 | Sosial psixologiya | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz - 4 | 3 |
| 12 | İF-B06 | İnkişaf və yaş psixologiyası | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 1 | 3 |
| 13 | İF-B07 | Uşaq anatomiyası və fiziologiyası | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz - 2 | 3 |
| 14 | İF-B08 | Xüsusi təhsil | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 2 | 4 |
| 15 | İF-B09 | İnklüziv təhsil | 6 | 180 | 105 | 75 | 45 | 30 | | | Payız - 3 | 5 |
| 16 | İF-B10 | Loqopediya * | 7 | 210 | 120 | 90 | 45 | 45 | | | Yaz - 4 | 6 |
| 17 | İF-B11 | İntellektual pozulmaları olan uşaqların erkən diaqnostikası, profilaktikası və reabilitasiyası | 7 | 210 | 120 | 90 | 45 | 45 | | | Payız - 5 | 6 |
| 18 | İF-B12 | Surdopedaqogika * | 6 | 180 | 120 | 60 | 30 | 30 | | | Yaz - 4 | 4 |
| 19 | İF-B13 | Həyat bilgisi və onun xüsusi məktəblərdə tədrisi metodikası * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 7 | 3 |
| 20 | İF-B14 | Tiflopedaqogika * | 6 | 180 | 105 | 75 | 45 | 30 | | | Yaz - 6 | 5 |
| 21 | İF-B15 | Korreksiya pedaqogikası * | 6 | 180 | 105 | 75 | 45 | 30 | | | Payız - 5 | 5 |
| 22 | İF-B16 | Təsviri sənət və onun xüsusi məktəblərdə tədrisi metodikası * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 7 | 3 |
| 23 | IF-B17 | Sağlamlıq imkanları məhdud uşaqların somatik və kliniki inkişafının xüsusiyyətləri | 7 | 210 | 120 | 90 | 45 | 45 | | | Yaz - 4 | 6 |
| 24 | IF-B18 | Oliqofrenopedaqogika * | 6 | 180 | 105 | 75 | 45 | 30 | | | Payız - 3 | 5 |
| 25 | IF-B19 | Riyaziyyat və onun xüsusi məktəblərdə tədrisi metodikası * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 5 | 3 |
| 26 | İF-B20 | Texnologiya və onun xüsusi məktəblərdə tədrisi metodikası * | 5 | 150 | 105 | 45 | 15 | 30 | | | Yaz - 6 | 3 |
| 27 | İF-B21 | Azərbaycan dili və onun xüsusi məktəblərdə tədrisi metodikası * | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 5 | 3 |
| 28 | İF-B22 | Mülkü müdafiə və ilkin tibbi yardım | 6 | 180 | 120 | 60 | 30 | 30 | | | Payız - 1 | 4 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **III** | **ATMF-B00** | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | **60** | **1800** | **1140** | **660** | **360** | **300** | | | | |
| 29 | ATMF – B01 | **I Blok**<br>1. Davranış pozulmaları və hiperaktivlik sindromunun diaqnostikası və korreksiyası;<br>2. Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial adaptasiyası. | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 3 | 3 |
| 30 | ATMF – B02 | **II Blok**<br>1. Mürəkkəb pozulmaları olan uşaqların pedaqoji-psixoloji xüsusiyyətləri;<br>2.Sensor pozulmaları olan uşaqların pedaqoji prosesinin təşkili. | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Yaz - 4 | 3 |
| 31 | ATMF – B03 | **III Blok**<br>1. Dayaq-hərəkət aparatı pozulmaları olan uşaqların inkişaf xüsusiyyətləri, diaqnostikası və korreksiyası;<br>2. İnklüziv siniflərdə şagird biliklərinin qiymətləndirilmə kriteriyaları. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 32 | ATMF-B04 | **IV Blok**<br>1. Daktilologiya və jest nitqi;<br>2. Nitqi qüsurlu uşaqlarda psixomotor inkişafın diaqnostikası. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| 33 | ATMF-B05 | **V Blok**<br>1. Sensor pozulmaları olan uşaqların pedaqoji-psixoloji reabilitasiyası;<br>2. Xromosom patologiyalarının prenatal diaqnostikası. | 4 | 120 | 75 | 45 | 30 | 15 | | | Payız - 5 | 3 |
| 34 | ATMF-B06 | **VI Blok**<br>1. Relyef-nöqtəişarə sistemi (Brayl əlifbası);<br>2. Emosional sfera və davranış pozulmaları olan uşaqların inkişaf xüsusiyyətləri. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| 35 | ATMF-B07 | **VII Blok**<br>1. Koxlear implantlı uşaqların nitq reabilitasiyası;<br>2. Xüsusi məktəblərdə loqopedin işinin təşkili formaları. | 6 | 180 | 120 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 36 | ATMF-B08 | **VIII Blok**<br>1. Xüsusi psixologiya;<br>2. Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasında art terapiyalar. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 2 | 4 |
| 37 | ATMF-B09 | **IX Blok**<br>1. Autizm spektr pozulmaları olan şəxslərin diaqnostikası və reabilitasiyası;<br>2. Autistik spektr pozulmaları zamanı nitq patologiyalarının aradan qaldırılması yolları. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| 38 | ATMF-B10 | **X Blok**<br>1. Sağlamlıq imkanları məhdud uşaqların fiziki tərbiyəsinin əsasları;<br>2. İntellektual pozulmaların kliniki əsasları | 5 | 150 | 105 | 45 | 30 | 15 | | | Payız - 3 | 3 |
| 39 | ATMF-B11 | **XI Blok**<br>1. Ontogenetik inkişafın əsasları;<br>2. İnklüziv və inteqrativ tipli məktəblərdə loqopedik xidmətin təşkili. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Yaz - 6 | 4 |
| 40 | ATMF-B12 | **XII Blok**<br>1. Xüsusi məktəblərdə şagirdlərin oxu və yazı pozulmalarının korreksiyası və profilaktikası;<br>2. Təlimdə çətinlikləri olan uşaqlarda disqrafiyanın aradan qaldırılması yolları. | 5 | 150 | 90 | 60 | 30 | 30 | | | Payız - 7 | 4 |
| **IV** | | **Pedaqoji internatura** | **30** | | | | | | | Ulduzla işarələnmiş fənlər | Yaz - 8 | |
| | | **Cəmi:** | **240** | **6300** | **3990** | **2310** | **1170** | **945** | **195** | | | |

**Tədris planlarında tədris prosesi tam olaraq öz əksini tapmamışdır.Lakin tələbələrin yay semestri yaz semestri başa çatdıqdan sonra təşkil olunur müddəti 6 həftədir(5 həftə nəzəri təlim 1 həftə imtahan müddəti sonda) Yay müddətində tələbənin götürdüyü fənn krediti 10 dur.**

MƏKTƏBƏQƏDƏR TƏHSİL, PSİXOLOJİ XİDMƏT VƏ KORREKSİYAEDİCİ TƏLİM FAKÜLTƏSİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

## FAKÜLTƏNİN İDARƏETMƏ STRUKTURU

Azərbaycan Dövlət Pedaqoji Universiteti Məktəbəqədər təhsil fakültəsinə ümümi rəhbərlik dekanın başçılıq etdiyi seçkili orqan olan Məktəbəqədər təhsil fakültəsi Elmi Şurası tərəfindən həyata keçirilir.

Məktəbəqədər təhsil fakültəsi Azərbaycan Dövlət Pedaqoji Universiteti tədris, elm və inzibati bölməsi olub, Məktəbəqədər təhsil, Təhsildə sosial - psixoloji xidmət, Korreksiyaedici təlim ixtisaslarında təhsil ixtisasları üzrə bakalavr hazırlanması işini həyata keçirir, eləcə də fakültədə elmi - tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir.

Məktəbəqədər təhsil fakültəsi "Məktəbəqədər təhsil", "Təhsildə sosial - psixoloji xidmət", "Korreksiyaedici təlim" ixtisaslarının əsas ixtisas kafedraları olan Məktəbəqədər təhsilin pedaqogikası, Ümumi psixologiya, Pedaqoji psixologiya və Xüsusi təhsil kafedralarını özündə birləşdirir.

**Dekan, pedaqogika elmləri doktoru, dosent Hüseynova Nailə Tofiq qızı**



Hüseynova Nailə Tofiq qızı 1972 - ci ildə Bakı şəhərində anadan olmuş. 1988 - ci ildə Bakı şəhəri 88 saylı orta məktəbi bitirmişdir. 1988 -1993 - cü ildə V.L.Lenin adına Moskva Dövlət Pedaqoji Universitetinin "Defektologiya" fakültəsində təhsil almış və 1993 - cü ildə həmin Universiteti xüsusi müəssisələrdə defektoloq-loqoped ixtisası üzrə bitirmişdir. 1993 - cü ildən 17 saylı nitqi qüsurlu körpələr evi - uşaq bağçasında loqoped vəzifəsində çalışmışdır. 1996 - cı ildən Azərbaycan Dövlət pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışmışdır.
2015 - 2021 - ci illərdə yeni yaradılmış Korreksiyaedici təlim kafedrasının müdiri vəzifəsində çalışmışdır.

2003 - cü ildə "Причины возникновения общего недоразвития речи у детей дошкольного возраста и пути их устранения " (Məktəbəqədər yaşlı uşaqlarda nitqin ümumi inkişaf ləngiməsini yaradan səbəblər və onların aradan qaldırılması yolları) mövzusunda dissertasiya müdafiə edərək pedaqogika elmləri namizədi elmi dərəcəsi almışdır.

2017 - ci ildə 5805.01 - "Korreksiya pedaqogikası" şifri ilə elmlər doktoru

proqramı üzrə dissertantutaya qəbul olunmuşdur. Azərbaycan Respublikasının prezidenti yanında Ali Attestasiya Komissiyasının 28 mart 2018 - ci il tarixli (protokol №09 - K) qərarı ilə N.T.Hüseynova Korreksiyaedici təlim kafedrası üzrə dosent elmi adı verilmişdir.

Dos. N.T.Hüseynova ADPU - nun əməkdaşlıq etdiyi Beynəlxalq layihələrdə fəal iştirak etmişdir. Bu layihələrdən 2018 - 2019 - cu illərdə "Azərbaycan Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək" layihəsi çərçivəsində Bakı şəhərində həyata keçirilən, yeni tərtib olunmuş kvalifikasiya standartları əsasında mövcud tədris prqramlarının müasirləşdirilməsi üzrə işçi qrupun üzvü olaraq sertifikatlarla təltif olunmuş, "Korreksiyaedici pedaqaqoq" ixtisası üzrə 4 modul hazırlayaraq dərs vəsaitlərini çap etdirmişdir.

Dos.N.T.Hüseynova 21 - 25 aprel 2019 - ci il tarixlərində H.Əliyev Fondu RİİB - in və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təşkil etdiyi "İnklüziv təhsil sahəsində müəllim hazırlığı ilə bağlı Belarus Respublikasının təcrübəsinin öyrənilməsi məqsədilə Minsk şəhərinə və 19 - 25 yanvar 2019 - cu il tarixlərində Azərbaycanda İnklüziv təhsil sahəsində Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Portuqaliya şəhərinə ezam olunmuşdur.

2022 - ci il fevral ayının 11 - də dosent Nailə Tofiq qızı Hüseynova elmlər doktoru elmi dərəcəsi almaq üçün "Rinolaliyalı uşaqlarda nitq pozulmalarının diaqnostikası və korreksiyası" mövzusunda olan dissertasiya işini beynəlxalq səviyyədə müdafiə etmişdir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin F - 259 saylı 02.06.2021 - ci il tarixli əmrinə əsasən dosent Nailə Tofiq qızı Hüseynova Respublika psixoloji- tibbi - pedaqoji komissiyasına üzv seçilmişdir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin F - 31 saylı 27.04.2022 - ci il tarixli əmrinə əsasən dosent Nailə Tofiq qızı Hüseynova xüsusi tipli ümumi təhsil müəssisələrinə müəllim-defektoloq və müəllim - loqoped vəzifələrinə işə qəbul zamanı namizədlərin ilkin bilik və bacarıqlarının yoxlanılması ilə bağlı qiymətləndirmə çərçivəsinin hazırlanması məqsədilə təşkil olunmuş işçi qrupa üzv seçilmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorunun əmri ilə 2022 - ci ildən Məktəbəqədər təhsil fakültəsində Dekan vəzifəsində çalışır.

Dos.N.T.Hüseynova 3 dərslik, 9 dərs vəsaiti, 3 metodik vəsait, 24 proqram və 57 - dan yuxarı elmi məqalə və tezislərin müəllifidir.

**Dekan müavini, Südabə Nəsrəddin qızı İsgəndərova**



1973 - cü ildə Sumqayıt şəhərində anadan olmuşdur. Orta məktəbi 1990 - cı ildə bitirdikdən sonra , həmin il Gəncə Dövlət Pedaqoji Universitetinə daxil olmuşdur.

1995 - ci ildə Gəncə Dövlət Pedaqoji Universitetini Biologiya - kimya, 2008 - 2009 - cu illərdə BPKİYİ - i psixologiya ixtisası üzrə bitirib. 2011 - 2014-cü illər də ARTİ - də korreksiya pedaqogikası üzrə doktorantura bitirib. "Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyası" adlı dissertasiya işini müdafiə edib.

1995 - 2009 - cu illərdə müxtəlif təhsil müəssisələrində çalışıb. 2009 - 2011 - ci illərdə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda Yenidənhazırlanma fakültəsində, 2011 - 2016-cı illərdə BPKİYİ - da Yenidənhazırlanma və İxtisasdəyişmə fakültələrində, ADPU - da Yenidənhazırlanma və "Məktəbəqədər təlim, psixoloji xidmət, korreksiyaedici təlim" fakültələrində mühazirəçi müəllim vəzifəsində çalışıb. 2016 - 2018 - ci illərdə Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Konsultasiya - poliklinika şöbəsində psixoloq vəzifəsində çalışıb. 2018 - ci ildən ADPU - da Xüsusi təhsil kafedrasında müəllim vəzifəsində, 2022 - ci ildən Məktəbəqədər təhsil fakültəsində dekan müavini vəzifəsində çalışır.

Südabə Nəsrəddin qızı İsgəndərova 1 monoqrafiya, 8 proqram, 32 məqalə və 16 tezisin müəllifidir.

Psixoloji xidmət və korreksiyaedici təlim — Azərbaycan Dövlət Pedaqoji Universiteti

**Fakültə tyutoru: Səkinə Rafiq qızı Namazəliyeva**



Məktəbəqədər təhsil fakültəsinin tyutoru Namazəliyeva Səkinə Rafiq qızı 1986 - cı il iyul ayının 24 - də Füzuli rayonunun Horadiz kəndində anadan olub. 1993 - cü ildə Bakı şəhəri Xətai rayonu 191 saylı orta ümumtəhsil məktəbin birinci sinfinə gedib. 2004 - cü ildə Bakı şəhəri Sabunçu rayonu 75 saylı orta məktəbi bitirib. Elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakültəsinə qəbul olub. 2008 - ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakültəsini bitirib. Həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakültəsinə "İbtidai təhsilin pedaqogikası və metodikası" ixtisaslaşması üzrə Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının magistratura pilləsinə daxil olmuşdur. 2010 - cu ildə "İbtidai siniflərdə üslubiyyat üzrə işin məzmunu" mövzusunda dissertasiya işi müdafiə edərək magistr dərəcəsi almışdır. 2011 - ci il martın 7 - dən ADPU - nun Məktəbəqədər təhsil fakültəsinin tyutoru vəzifəsində çalışır.

2013 - 2014-cü tədris ilindən ADPU - nun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının dissertantıdır.

Minimumları müvəffəqiyyətlə vermiş, müxtəlif jurnallarda məqalələri çap olunmuş, respublika elmi -praktik konfranslarda iştirak etmişdi

**Fakültə tyutoru: Nərgiz Rövşən qızı Əliyeva**



ADPU - nun Məktəbəqədər təhsil fakültəsinin tyutoru 1990 - cı ildə iyun ayının 9 - da Bakı şəhərində anadan olub. 1997 - ci ildə Bakı şəhəri Nizami rayonu 251 № li tam orta məktəbin birinci sinfinə gedib. 2008 - ci ildə həmin məktəbi bitirib. 2009 - cu ildə Bakı Slavyan Universitetinin Pedaqoji fakültəsinə qəbul olub. 2013 - cü ildə həmin fakültəni bitirib. 2014 - cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika və psixologiya fakültəsinə "Məktəbəqədər təhsilin pedaqogikası və metodikası" ixtisası üzrə magistratura pilləsinə daxil olmuşdur. 2016 - cı ildə dissertasiya işi müdafiə edərək magistr dərəcəsi almışdır.

2017 - 2018 - ci il ərzində 251 № li tam orta məktəbdə katibə vəzifəsində işləmişdir. 2018 - ci ilin fevralından Məktəbəqədər təhsil fakültəsinin tyutoru vəzifəsində çalışır.

Ailəlidir.

**Fakültə tyutoru: Maral Məhərrəm qızı Abuzərli**



1994-cü ildə Bakı şəhərində anadan olub. 2000 - ci ildə N.Nərimanov rayon 212 saylı orta məktəbin birinci sinfinə gedib. 2011- ci ildə həmin orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Müəllimlər İnstitutunun Filologiya və Təhsildə Psixoloji Xidmət fakültəsinə qəbul olmuşdur. 2016 - 2018 -ci ildə Bakı Dövlət Universitetinin Sosial Elmlər və Psixologiya fakültəsinin magistratura pilləsində təhsil alıb. Ailəlidir, bir övladıvar. 2019 - ci ildən ADPU - nun Məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində çalışır. 2011-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Filologiya və Təhsildə Psixoloji Xidmət fakültəsinə qəbul olub. 2015 - ci ildə bakalavr təhsilini bitirmiş və 2016 - cı ildə BDU - nun Sosial Elmlər və Psixologiya fakültəsinin "Pedaqogika nəzəriyyəsi və tarixi" ixtisaslaşması üzrə Pedaqogika kafedrasının magistratura

pilləsinə daxil olmuşdur. 2018 - ci ildə “Akademik M.Mehdizadənin didaktik görüşləri” mövzusunda dissertasiya işi müdafiə edərək magistr dərəcəsi almışdır.
2012-2014 “Öndər” kursunda müəllimə, 2019 (15 Oktyabr) ADPU - nun Məktəbəqədər təhsil fakültəsinin tyutoru
E-mail: marall_2013@inbox.ru    Ailəlidir.

**Tyutor : Rəna Eldəniz qızı Əhmədova**



1988 - ci il fevral ayının 13-də Ucar rayonunda anadan olub.1994 - cü ildə Bakı şəhəri N.Nərimanov rayonu 39 saylı orta ümumtəhsil məktəbin birinci sinfinə gedib. 2005 - ci ildə həmin orta məktəbi bitirib. 2011 - ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Pedaqoji fakültəsinə qəbul olub. 2015- ci ildə bakalavr təhsilini başa vurub və 2016 - cı ildə magistraturaya qəbul olub. 2018 -ci ildə magistr təhsilini başa vurub. 2018 - ci ildən ADPU - nun Məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində çalışır.
Ailəlidir, bir qızı var.
TƏHSİLİ, ELMİ DƏRƏCƏSİ VƏ ELMİ ADLARI
2011-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Pedaqoji fakültəsinə qəbul olub.
2015-ci ildə bakalavr təhsilini başa vurub və 2016-cı ildə magistraturaya qəbul olub.
2018-ci ildə “Ali məktəb müəlliminin pedaqoji qabiliyyətləri və pedaqoji ustalığı” mövzusunda dissertasiya işi müdafiə edərək magistr dərəcəsi almışdır.
2018 (Avqust-Fevral) “Zirvə” kurslarında müəllim vəzifəsində
2018 (6 Fevral) ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin tyutoru
E-mail: ehmedova_rena@inbox.ru

**Fakültə tyutoru, İlahə İsaməddin qızı Quliyeva**



Quliyeva İlahə 31 Dekabr 1996 - cı ildə Quba şəhərində anadan olub. 2014 - cü ildə Quba şəhər 6 saylı tam orta məktəbini bitirib. Elə həmin il ADPU-nun Quba filialında təhsildə sosial - psixoloji xidmət ixtisası üzrə bakalavr səviyyəsinə qəbul olunub və 2018 - ci ildə ali təhsilini başa vurub. ADPU - da "Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası" ixtisası üzrə magistratura təhsili alıb. "Məktəbəqədər yaşlı uşaqların sosial inkişafı: mərhələləri, amilləri, vasitələri" adlı magistrlik dissertasiyasını müdafiə edərək, 2020 - ci ildə magistratura təhsilini başa vurub. Magistraturada oxuduğu illərdə "Məktəbəqədər yaşlı uşaqların sosial - emosional inkişafının mərhələləri" adlı məqaləsi magistrantların II Respublika elmi konfransının materiallarında (Bakı, 18 - 19 aprel, 2019 - cu il) nəşr edilib. Digər məqaləsi - "Məşğələlər məktəbəqədər yaşlı uşaqların sosial inkişafının əsas vasitəsi kimi" magistrantların III Respublika elmi konfransının materiallarında (Bakı, 14 - 15 may, 2020-ci il) nəşr olunub. 15 noyabr 2020-ci ildə Quba şəhər, B.Sultanov adına Ağbil kənd tam orta məktəbində psixoloq kimi fəaliyyətə başlayıb. 4 aylıq fəaliyyətindən sonra 2 aprel 2021-ci il tarixindən ADPU-nun Məktəbəqədər təhsil fakültəsində tyutor işləyir.

E-mail: ilahe_9494@mail.ru

Subaydır.

**Fakültə tyutoru, Nigar Azər qızı Ələkbərli**



Ələkbərli Nigar Azər qızı 16 iyun 2001- ci il tarixində Naxçıvan şəhərində anadan olmuşdur 2017-ci ildə Bakı şəhəri Xətai rayonundakı "Zəkalar" liseyində tam orta təhsilini başa vurararaq Odlar Yurdu Universitetinin ingilis dili müəllimliyi ixtisasına qəbul olmuş, 2021 - ci ildə isə ali təhsilini başa vurmuşdur. 2024 - cü ilin yanvar ayından ADPU - nun

Məktəbəqədər təhsil fakültəsində tyutor işləyir.

Email; Nigar_alakbarli@mail.ru Subaydır.

**Fakültə tyutoru, Kəmalə Xəyym qızı Hacızadə**



Hacızadə Kəmalə 22 sentyabr 1992 - ci ildə Füzuli şəhərində anadan olub. Orta məktəb təhsilini 2009 - cu ildə Bakı şəhərində tamamlayıb. 2009 – 2014 - cü illərdə Bakı Dövlət Universitetinin “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi” ixtisasında təhsil almışdır.

2018 - ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Məktəbəqədər təhsil və tərbiyənin metodika və metodologiyası" ixtisası üzrə təshilini davam etdirmişdir.

"Məktəbəqədər müəssisələr ilə məktəb arasında varisliyin gözlənilməsinin forma və yolları" adlı magistrlik dissertasiyasını müdafiə edərək 2020-ci ildə magistratura təhsilini başa vurub. Təhsil aldığı illərdə "Varisliyin gözlənilməsinin pedaqoji ədəbiyyatda təhlili" adlı magistrantların III Respublika elmi konfransının materiallarında (Bakı, 14–15 may, 2020-ci il) nəşr olunub.

12 oktyabr 2021-ci il tarixindən ADPU - nun Məktəbəqədər təhsil fakültəsində tyutor işləyir.

E-mail: kamalahk@mail.ru

Ailəlidir.

**Fakültə tyutoru: Gülşən Nadir qızı Əliyeva**



ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin tyutoru

1996-ci il Bakı şəhərində anadan olmuşdur.

2002-ci ildə Baki şəhəri 275№li tam orta məktəbin birinci sinfinə gedib. 2013 ci ildə həmin məktəbi bitirib.

2013- cu ildə Sumqayit Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olub. 2017 - ci ildə

həmin fakültəni bitirib.2024-cü ilin noyabrından Məktəbəqədər təhsil fakültəsinin tyutoru vəzifəsində çalışır.

Ailəlidir.

**Fakültə tyutoru: Ləman Fuad qızı Hüseynli**



Hüseynli Ləman Fuad qızı 1999 - cu ildə Bakı şəhərində anadan olmuşdur. 2005 - ci ildə 283 saylı tam orta məktəbə daxil olub, 2016 - cı ildə həmin məktəbi bitirmişdir. 2016 - cı ildə Azərbaycan Dillər Universitetini Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin Regionşünaslıq - Fransa ixtisasına qəbul olub və 2020 - ci ildə ali təhsilini başa vurub. 2020 - ildən - 2022 ci ilin may ayında "Səhhət MMC" tibb mərkəzində sığorta məsləhətçisi olaraq fəaliyyət göstərmişdir. 2024-cü il oktyabr ayından Azərbaycan Dövlət Pedoqoji Universitetində Məktəbəqədər fakültəsində tyutor vəzifəsində işləyir.

E-mail: leman.akhmadzade123@gmail.com Evlidir.

**Fakültə tyutoru: Gülyaz İlkin qızı Əbilhəsənli**



Əbilhəsənli Gülyaz İlkin qızı 2000 - ci ilin iyunun 16 - da Bakı şəhərində anadan olmuşdur. 2007 - ci ildə Bakı şəhəri Xətai rayonu 55 nömrəli tam orta məktəbin 1- ci daxil olmuşdur. 2018 - ci ildə Masallı rayon sinfinə Təzəkənd kənd tam orta məktəbini bitirmişdir. Həmin ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olmuşdur. 2022 - ci ildə ali təhsilini bitirmişdir. 2022 - ci il də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası ixtisası üzrə magistratura təhsilini alıb. 2024 - cü ildə magistr təhsilini bitirmişdir. Bir sıra özəl kurslarda müəllim kimi fəaliyyət göstərmişdir. 2024 - cü ilin oktyabr ayından Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində işləyir.

Email: abilhasanligulyaz@gmail.com

Subaydır

**Fakültə tyutoru: Şəhanə Yusif qızı Məmmədli**



Məmmədli Şəhanə 10 Fevral 1996 - cı ildə Bakı şəhərində anadan olub. 2013 - cü ildə Bakı şəhər 211 saylı tam orta məktəbini bitirib. Elə həmin il ADPU - nun Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə bakalavr səviyyəsinə qəbul olub və 2017 - ci ildə ali təhsilini başa vurub. Odlar Yurdu Universitetinin "Azərbaycan dili müəllimliyi" ixtisası üzrə magistratura təhsili alıb. "İşlənmə dairəsinə görə fərqlənən söz qrupları və onların üslubi xüsusiyyətləri" adlı magistrlik dissertasiyasını müdafiə edərək, 2023 - ci ildə magistratura təhsilini başa vurub. 2024 - cü il tarixindən ADPU - nun Məktəbəqədər təhsil fakültəsində tyutor işləyir.

E-mail: shana.mamedova.96@gmail.com

Subaydır.

**Fakültə tyutoru: Cəvahir Nadir qızı Məmmədova**



Cəvahir Nadir qızı Məmmədova 1986-cı il 15 yanvar tarixində Ağsu rayonunda doğulmuşdur. 2003-cü ildə Ağsu rayon 3 saylı orta məktəbdən məzun olmuşdur. 2003-cü ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin Azərbaycan dili Ədəbiyyat müəllimliyi ixtisasına daxil olmuşdur. 2009-cu ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin məzunu olmuşdur. 20132014-cü illərdə Bakı Dövlət Rabitə və Nəqliyyat kollecində Makinaçı vəzifəsində çalışmışdır. 2023-cü ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində çalışır.Ailəlidir 3 övladı var.

**Fakültə operatoru, Aişə Elmi qızı Məlikzadə**



Məlikzadə Aişə Elmi qızı 1997-ci il noyabr ayının 30-da Qəbələ rayonunun Aydınqışlaq kəndində anadan olmuşdur. 2015-ci ildə Aydınqışlaq kənd orta məktəbini bitirmişdir. 2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İbtidai sinif müəllimliyi" fakültəsinə qəbul olunmuşdur. 2019-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İbtidai sinif müəllimliyi" fakültəsini bitirmişdir.

2019-cu ildə Mingəçevir Dövlət Universitetinin İbtidai siniflərdə tədrisin metod və metodologiyası ixtisası üzrə magistr pilləsinə daxil olmuşdur. 2021-ci ildə Magistraturanı "İbtidai siniflərdə tədrisin metod və metodologiyası" ixtisası üzrə bitirmişdir.

2022-cü ilin oktyabr ayından Məktəbəqədər təhsil fakültəsində operator kimi fəaliyyət göstərir.

Gmail:aishamalikzadeh97@gmail.com

Subaydır.

**Fakültə operatoru, Esmira Ramil Hüseynova**



Hüseynova Esmira Ramil qızı 1998-ci il 14 oktyabr Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində doğulub. 2016-cı ildə 289 nömrəli Zəngi litseyinin məzunu olmuşdur. 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakükltəsinin Məktəbəqədər təhsil ixtisasına qəbul olmuşdur. 2020-ci ildə universiteti Məktəbəqədər təhsil ixtisası üzrə bitirmişdir.

2023-cü il fevral ayından Məktəbəqədər təhsil fakültəsində operator kimi fəaliyyət göstərir.

Gmail: esmira1498@gmail.com

# FAKÜLTƏNİN TƏŞKİLATİ STRUKTURU

*FAKÜLTƏNİN TƏŞKİLATİ*

## *Dekan*

*Dekan müavini*

*Fakültə elmi şurası*

**Məktəbəqədər təhsilin pedaqoqikası**
**Bakalavr: 050112** Məktəbəqədər təhsil
**Magistr: 060117** Məktəbəqədər təlim və tərbiyə metodikası və metodologiyası
**Doktorantura: 5804.01** Ümumi pedaogika,pedaqogikanın və təhsilin tarixi

**Ümumi Psixologiya**
**Bakalavr: 050118** Təhsildə sosial-psixoloji xidmət
**Magistr: 060118** Təhsildə sosial-psixoloji xidmət
**Doktorantur: 6107.01** Ümumi psixologiya

**Pedaqoji psixologiya**
**Bakalavr: 050118** Təhsildə sosial-psixoloji xidmət
**Magistr: 060118** Təhsildə sosial-psixoloji xidmət **Doktorantura 6104.01** Pedaqoji psixologiya

**Xüsusi təhsil**
**Bakalavr: 050111** Korreksiyaedici təlim
**Magistr: 060116** Korreksiyaedici təlimin metodikası və metodologiyası
**Doktorantura: 5805.01** Korreksiya pedaqogikası

***İşçi heyət:***
Fakültə tyutorları, operatorlar

## Fakültə Elmi Şurasının üzvləri

**Tutduğu vəzifəyə görə**

**Fakültə Elmi Şurasına tutduğu vəzifəyə görə daxil olan üzvləri təqdim edirəm:**

1. p.ü.e.d. Hüseynova Nailə Tofiq qızı - Dekan, sədr
2. p.ü.f.d. İsgəndərova Südabə Nəsrəddin qızı – Dekan müavini, sədr müavini
3. prof.Əliyev Ramiz İbrahim oğlu - Ümumi psixologiya kafedrasının müdiri, üzv
4. prof.İlyasov Müseyib İbrahim oğlu - Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri, üzv
5. prof. Əliyeva Şəhla Qasım qızı- Pedaqoji psixologiya kafedrası müdiri, üzv
6. dos. Heydərova Simnarə Nadir qızı- Xüsusi təhsil kafedrası kafedrası müdiri, üzv
7. müəllim Orucəliyeva Şəkər Şahlar qızı -Fakültə Həmkarlar Təşkilatının sədri-Məktəbəqədər təhsilin pedaqogikası kafedrası – üzv
8. müəllim Rəhimli Türkan İlqar qızı – FakültəTələbə Elmi Cəmiyyətinin sədri – Pedaqoji psixologiya kafedrası- üzv
9. tələbə Rüstəmzadə Nigar Ziyafət qızı - Fakültə Tələbə Gənclər Təşkilatının sədri- üzv
10. tələbə Babayeva Rəvanə Rəfail qızı - Fakültə Tələbə Həmkarlar Təşkilatının sədri, üzv

Fakültənin müəllimlərindən ibarət üzvlər:

**Məktəbəqədər təhsilin pedaqogikası kafedrası üzrə:**

1. dosent Baxışova Şərafət Aram qızı
2. baş müəllim Abdullayeva Səidə Ataş qızı
3. pedaqogika üzrə fəlsəfə doktoru Həmidova Xalidə Aydın qızı
4. pedaqogika üzrə fəlsəfə doktoru Məmmədova Yeganə Xanoğlan qızı

**Pedaqoji psixologiya kafedrası üzrə:**

5. dosent İsmayılova Mehriban Cəlal qızı
6. dosent Rəhimova Qəribə Vahid qızı
7. p.ü.f.d.Əlixanova Gülnarə Həmzəbəyovna qızı

**Ümumi psixologiya kafedrası üzrə:**

8. dosent Əfəndiyeva Ülviyyə Akif qızı
9.dosent Həsənli Solmaz Qüdrət qızı
10.Baş müəllim Əfəndiyeva Günəş Əliabbas qızı

**Xüsusi təhsil kafedrası üzrə:**

11.dosent Ağayeva Tamilla Hüseyn qızı
12.dosent Aslanova Səbinə Ramiz qızı
13.müəllim Abasova Səlbi Ağamehdi q

**İXTİSAS KAFEDRALARI**

**Məktəbəqədər təhsilin pedaqogikası**



Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrası 1968 - ci ildən fəaliyyət göstərir. Məktəbəqədər təhsil-tərbiyə müəssisələri üçün ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr hazırlığında Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının müstəsna xidməti vardır. Kafedra 1968 - ci ildə dosent Ə.Qədimbəyova (müdir), dos.N.Rüstəmova, dos.B.Paşayeva, müəllim Z.Vəliyeva, S.Axundova, R.Mursaqulova, R.Şapiro, S.Ələkbərova, Z.Quliyeva, X.Məmmədovadan ibarət tərkibdə yaradılmışdır.

Ötən illər ərzində kafedraya dos.Ə.Qədimbəyova (1986 - 1978), dos.N.Rüstəmova (1980 - 1989), dos.B.Paşayeva (1990 - 1999), dos.R.Mursaqulova (1999 - 2012) rəhbərlik etmişlər. 2013 - cü ildən isə həmin kafedraya prof.M.İlyasov rəhbərlik edir.

Kafedranın inkişafında dos. Ə.Qədimbəyova, dos.N.Rüstəmova, dos.B.Paşayeva, dos.R.Mursaqulova. prof.Ş.Əliyeva, prof.M.İlyasov və başqalarının səmərəli xidmətləri olmuşdur.“Məktəbəqədər təhsilin pedaqogikası” kafedrası ali təhsilin bakalavriat və magistratura pilləsində məktəbəqədər təlim və tərbiyə istiqaməti üzrə əsas aparıcı ixtisas kafedrasıdır.

Kafedra yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün bir çox sahələri əhatə edən 30 - dan çox müxtəlif fənnin tədrisini həyata keçirir.

Kafedranın tədris etdiyi fənlər, yüksək ixtisaslı mütəxəssislər tərəfindən azərbaycan və rus dillərində tədris olunur.

Tədris olunan fənlər üzrə tədrisin keyfiyyətini artırmaq, tədris prossesinin səmərəliliyini yüksəltmək, o cümlədən, tələbələrin və magistrantların müxtəlif sahələr üzrə nəzəri biliklərlə yanaşı, həm də təcrübi vərdişlərini artırmaq məqsədilə mütəmadi olaraq məktəbəqədər təhsilin tanınmış mütxəssislərinin iştirakı ilə elmi seminarlar keçirilərək onlara təhsil müddətində öyrənmiş olduqları

biliklərin praktik həyatda istifadəsi öyrədilir. Həmçinin tələbələrin elmi - nəzəri və praktik hazırlıqlarının keyfiyyətini artırmaq üçün kafedra seminar təşkil olunur və işgüzar müzakirələr aparılır

Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsi
Azərbaycan Dövlət Pedaqoji Universiteti

## Pedaqoji psixologiya kafedrası



1921 - ci ildə fəaliyyətə başlayan indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində ilk illərdə psixologiya ixtisası üzrə milli kadrlar olmadığına görə instituta xarici ölkələrdən (Türkiyədən, Rusiyadan, Belarusiyadan və s.) mütəxəssislər dəvət olunurdu. A.O.Makiovelski, B.B.Komorovski, D.Q.Qulyayev, Ə.K.Zəkuyev, Muhiddin, M.Tofiq və başqalarını buna misal göstərmək olar.

Pedaqoji psixologiya kafedrasının inkişaf tarixindən danışarkən A.O. Makiovelski, Ə.K.Zəkuyevin adlarını xüsusilə qeyd etmək lazımdır.

XX əsrin 50 - ci illərinə qədər Azərbaycanda yetişən milli psixoloji kadrlar məhz bu alimlərin adı ilə bağlıdır. Sonralar Azərbaycanda görkəmli mütəxəssis alim kimi fəaliyyət göstərən M.Məhərrəmov, Ş.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev və başqaları bu alimlərin köməyi ilə psixoloq kimi formalaşmışlar.

Psixologiya kafedrası uzun müddət pedaqogika kafedrasının tərkibində fəaliyyət göstərmişdir.

1941 - ci ilin iyul ayında (Ə.K.Zəkuyev, S.Hacıyev) fəaliyyətə başlayan psixologiya kafedrası həm institutda, eləcə də Azərbaycanda bu elmin inkişafına təkan vermişdi. Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq kafedra müvəqqəti olaraq fəaliyyətini indiki BDU - da davam etdirir. 1942/43 - cü tədris ilindən başlayaraq kafedra yenidən V. İ. Lenin adına APİ - də fəaliyyət göstərməyə başlayır. Bu dövrdə

R.M.Məhərrəmov, M.Hacıyev, M.Mustafayeva, həmin kafedranın əməkdaşları olmuşlar. 1946 - 1947-ci tədris ilindən başlayaraq ümumtəhsil məktəblərdə məntiq - psixologiyanın tədrisi haqqında dövlətin xüsusi qərarı olur.

1947/48 - ci tədris ilində indiki ADPU - da Azərbaycan dili, məntiq - psixologiya şöbəsi açılır. Bu şöbənin açılması psixologiya sahəsində əlamətdar hadisə oldu. Bir çox görkəmli alimlər (M.Həmzəyev, A.Məmmədov, Ə.Abdullayev) həmin şöbənin məzunları olmuşlar.

Sonrakı illərdə universitetdə pixologiyanın tədrisində, həm də bu sahə üzrə kadr hazırlığına A.Makiovelskinin, 1921-ci ildə Türkiyənin İstanbul Universitetinin psixologiya - fəlsəfə şöbəsini bitirib Bakıya gələn A.K.Zəkuyevin böyük təsiri olmuşdur.

1950 - ci ildən başlayaraq aspirantura yolu ilə kadr hazlrlığına ciddi fikir verilmişdir. S. S. Ağayev, Ə. S. Bayramov, M. Ə. Həmzəyev, Ə. Ə. Əlizadə, A.U.Məmmədov, İ.A.Fərəcov və başqaları 1950 - ci ildən sonrakı dövrlərdə APİ - nin psixologiya kafedrasında aspirantura yolu ilə təhsil almış, əməkdar elm xadimi, professor Ə.K.Zəkuyevin rəhbərliyi ilə namizədlik dissertasiyaları müdafiə edilmişdir.

1959 - cu ildən psixologiya kafedrası yenidən pedaqogika kafedrası ilə birləşir. Ə.K.Zəkuyev isə Azərbaycan Elmlər Akademiyasının fəlsəfə şöbəsinə işə təyin olunur. Bu vəziyyət 1963-cü ilə qədər davam edir.

1963/64 - cü tədris ilindən kafedra yenidən müstəqil fəaliyyətə başlayır. Kafedraya 1963 - cü ildən 1975 - ci ilə qədər Ş.Ağayev rəhbərlik etmişdir.

M.Əbdülov, İ.Məmmədov, Ə.Baxşəliyev, Z.Orucov və başqaları həmin kafedrada Ş.Ağayevin rəhbərliyi ilə elmi - tədqiqat işi aparmışlar.

1974 - cü ildə həmin kafedra əsasında iki - ("Ümumi psixologiya" və "Yaş və pedaqoji psixologiya") psixologiya kafedrası təşkil edilmişdir. 1975 - ci ildən 2014 - cü ilə qədər Ümumi psixologiya kafedrasına prof. Ə.Ə.Əlizadə rəhbərlik etmişdir. Hal - hazırda Ümumi psixologiya kafedrasına prof.R.İ.Əliyev rəhbərlik edir. Pedaqoji psixologiya kafedrasına 1974 - cü ildən 1988 - ci ilə qədər dos. Z.Mehdizadə, 1988 - ci ildən 1992 - ci ilə qədər isə prof. Q.Əzimov rəhbərlik etmişdir

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorunun əmri ilə 1992-2019 illərdə kafedraya psixologiya elmləri doktoru Ərsətun Təriş oğlu Baxşəliyev,2019-2022-ci illərdə professor Qəhrəmanova Qızxanım rəhbərlik edib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorunun əmri ilə Pedaqoji psixologiya kafedrasına 2022-2023-cü tədris ilindən etibarən Şəhla Qasım qızı Əliyeva rəhbərlik edir.

"Pedaqoji psixologiya" kafedrası ali təhsilin bakalavriat və magistratura pillələrində "Psixologiya" ixtisası üzrə əsas aparıcı ixtisas kafedrasıdır. Kafedra, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün bir çox sahələri əhatə edən 33 - dən çox müxtəlif fənnin tədrisini həyata keçirir.

Kafedranın tədris etdiyi fənlər, yüksək ixtisaslı mütəxəssislər tərəfindən Azərbaycan və Rus dillərində tədris olunur

## ÜMUMİ PSİXOLOGİYA KAFEDRASI



1921-ci ildə Respublikamızda ikinci təhsil müəssisəsi APİ fəaliyyətə başlamışdır. İnstitutun fəaliyyətə başladığı ildən pedaqogika və psixologiya kafedrası yaranmışdır. Respublikanın ilk psixoloqları və psixologiya müəllimləri pleyadasında da respublikanın əsasən görkəmli filosofları - H.Şahtaxinski, A.Makovelski, Ə.Zəkuyev və b. həlledici rol oynamışlar. İlk psixologiya müəllimlərinin özlərinin hörmətli sözləri - psixoloq sözləri artıq ilk məktəblərdə fərəhlə səslənirdi.
II dünya müharibəsindən sonrakı illərdə ADPU - da psixologiyanın inkişafında yeni mərhələ yaranmışdır. Respublikada psixoloji eksperimental tədqiqatlar tarixi (Ş.Ağayev, Ə.Bayramov və b.) məhz bu mərhələdən başlayır. İlk eksperimental axtarışlar XX əsr Azərbaycan psixologiya tarixinin fundamental tədqiqatları kimi əlamətdardır.
1941 - 1963 - cü illərdə aktual problemlər psixoloji gündəmdə xüsusi yer tuturdu (M.Abbasov, A.Abdullayev, M.Mustafayeva və b.). İstedadlı psixoloqların (A.Məmmədov, Q.Əzimov, İ.Fərəcov, M.Əbdülov və b.) axtarışları ilə universitetdə özünəməxsus elmi aura yaranırdı.
1963 - 1975 - ci illərdə ADPU - nun psixoloqları artıq özlərinin doktorluq dissertasiyaları (Z.Mehdizadə və b.) ilə diqqəti cəlb edirdilər. Universitetin elmi - metodoloji əlaqələri günü - gündən genişlənirdi. Azərbaycan psixologiyası salnaməsində akademik B.F.Lomov, akademik Ş.Nadiraşvili, akademik B.M.Teplov kimi görkəmli psixoloqların metennatları iftixarla səslənirdi. Universitetdə artıq iki yeni kafedra - Ümumi psixologiya və Pedaqoji psixologiya kafedraları təsis edilmişdi.
1975 - 2013 - cü illərdə kafedraya prof.Ə.Ə.Əlizadə rəhbərlik etmişdir. Ümumi psixologiya kafedrasının inkişafında köklü mərhələ kimi xüsusi əhəmiyyətə malikdir. Kafedranın müdiri olan professor Ə.Əlizadə bu illər ərzində çoxlu sayda maraqlı fundamental psixoloji əsərlər (məsələn, Fantaziya binomu) nəşr etdirmiş və psixologianın nəinki universitetimizdə, həm də bütün respublikada inkişafına rövnəq vermişdir.

Kafedra fundamental psixoloji mərkəz kimi formalaşdıqca Azərbaycan psixologiyasının inkişafında önəmli rol oynamış, respublikamızı Dünya konqreslərində layiqincə təmsil etmişdir.
Respublikada psixologiya üzrə elmi kadrların formalaşmasında kafedranın xidmətləri böyükdür. Üç nəfər psixologiya elmləri doktoru və onlarla psixologiya üzrə fəlsəfə doktorlarının yetişməsində kafedra əhəmiyyətli rol oynamışdır.
Kafedra yarandığı günlərdən "Psixologiya" üzrə proqramların yaradılmasInda sistemli fəaliyyət göstərib. Yeni "Psixologiya" proqramı isə kafedranın təcrübəsində son dərəcə maraqlı innovasiyadır. Kafedranın tarixində ilk dəfə olaraq yeni proqramda (2011) "Ümumi psixologiya kafedrası respublikada bakalavrlar və magistrlər təcrübəsinə özünün sınaqdan çıxmış nailiyyətləri ilə töhvələrini verir, bu təcrübənin inkişafında özünəməxsus rol oynayır.
Hal hazırda kafedraya professor R.İ.Əliyev rəhbərlik edir. Kafedrada 21 nəfər müəllim və 3 nəfər tədris köməkçi heyəti çalışır.
Ümumi psixologiya kafedrasında ali təhsilin bakalavriat və magistratura pillələrində "Ümumi psixologiya", "Sosial psixologiya", "Ailə psixologiyası", "Şəxsiyyət psixologiyası", "Eksperimental psixologiya" və s. üzrə fənlər tədris olunur. Bu fənlərin tədrisi iki istiqamət üzrə aparılır. Məqsəd müəllim hazırlığında psixoloji biliklərin verilməsi və yüksək ixtisaslı psixoloq kadrlarının hazırlanmasına xidmət edir.
Kafedranın tədris etdiyi fənlər yüksək ixtisaslı, səriştəyə əsaslanan kadrlara lazım olan keyfiyyət və biliklərin verilməsini təmin edir.
Beləki, Ümumi psixologiya ilə yanaşı, Psixologiyanın əsasları azərbaycan və rus bölməsi, Koqnitiv, humanist və geştalt psixologiya; İdarəetmə və menecment psixologiyası; Sosial psixologiya; Təhsildə sosial psixoloji xidmət və psixoloji praktikum; Psixodiaqnostika və psixokonsultatsiya; Ailə və gender psixologiyası; Ünsiyyət psixologiyası; Psixofiziologiya; Seçmə fənn blokuna (Koqnitiv humanist və geştalt psixologiya; İdarəetmə və menecment psixologiyası; Ailə və gender psixologiyası; Koqnitiv psixologiya; Ümumi təhsil kurikulumun əsasları) və ixtisas üzrə tədris təcrübəsinə yiyələnirlər.

## Xüsusi təhsil kafedrası



Müasir dövrdə korreksiyaedici təlim sahələri üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, təhsil sahəsində aparılan islahatlar xüsusi təhsilin səmərəliliyinin artırılması, onun bütün sahələrinin yenidən qurulması, strukturlarının yaradılması, onların fəaliyyətlərinin daha da inkişaf etdirilməsi, xüsusi korreksiyaedici məktəblərin idarə edilməsi, təlim - tərbiyə, korreksiya, reabilitasiya və adaptasiya yollarının və digər problemlərin araşdırmaları müasir təhsil sistemində hərtərəfli, xüsusi biliklərə malik mütəxəssislərin hazırlanmasını zərurətə çevirir. Belə bir mürəkkəb və məsuliyyətli vəzifənin yerinə yetirilməsi üçün "Xüsusi təhsil" kafedrası 9 oktyabr 2015 - ci il tarixdə ADPU - nun Elmi Şurasının qərarı ilə (pr.2) yaradılmış və 3/305 nömrəli 29 oktyabr 2015 - ci il tarixli əmri ilə fəaliyyətə başlamışdır. Kafedrada bakalavr hazırlığı ilə yanaşı, həm də magistr hazırlığı aparılır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti rektorunun əmri ilə pedaqoji elmlər üzrə fəlsəfə doktoru Nailə Tofiq qızı Hüseynova 2015 - ci ilin dekabr ayından "Xüsusi təhsil" kafedrasının müdiri təyin edilmiş və bu dövr ərzində kafedraya rəhbərlik etmişdir. 2023 - cü ildə Xüsusi təhsil kafedrasına dosent Simnarə Nadir qızı Heydərova rəhbərlik etməyə başlamışdır.

"Xüsusi təhsil" kafedrası gənc kafedradır. "Xüsusi təhsil" kafedrası ali təhsilin

bakalavriat və magistratura pillələrində “Korreksiyaedici təlim” və “Korreksiyaedici təlimin metodikası və metodologiyası” istiqaməti üzrə əsas aparıcı ixtisas kafedrasıdır. Kafedra xüsusi təhsil üzrə ehtiyacı olan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün bir çox sahələri əhatə edən 30-dan artıq müxtəlif fənnin tədrisini həyata keçirir. Kafedranın tədris etdiyi fənlər, yüksək ixtisaslı mütəxəssislər tərəfindən azərbaycan və rus dillərində tədris olunur.

Tədris olunan fənlər üzrə tədrisin keyfiyyətini artırmaq, tədris prosesinin səmərəliliyini yüksəltmək, o cümlədən, tələbələrimizin müxtəlif sahələr üzrə nəzəri biliklərlə yanaşı, həm də təcrübi vərdişlərini artırmaq məqsədi ilə mütəmadi olaraq tanınmış mütəxəssislərinin iştirakı ilə elmi seminarlar keçirilərək onlara təhsil müddətində öyrənmiş olduqları biliklərin real həyatda istifadəsi öyrədilir. Bu mənada tədris metodikamızda nəzəriyyə və praktika arasında qurmağa çalışdığımız körpü və tarazlıq kafedramızın qeyd edilməli ən önəmli özəlliyidir.

## STRATEJİ HƏDƏFLƏRİMİZ VƏ GƏLƏCƏK PLANLARIMIZ

Məktəbəqədər təhsil fakültəsi olaraq qarşıya qoyduğumuz məqsədlərə çatmaq və öz missiyamızı yerinə yetirərək arzu etdiyimiz viziona nail olmaq üçün bir sıra fəaliyyətləri yerinə yetirməyi nəzərdə tutmuşuq. Belə ki:

**1.** Tədris prosesində nəzəri biliklərlə yanaşı təcrübi biliklərin öyrədilməsinə nail olmaq və auditoriyadan kənar məşğələlərin keçirilməsini təşkil etmək;

**2.** Tədris proqramlarının daim yeniləşdirilməsinə və mütəxəssis hazırlığında müasir dövrün tələblərinə uyğunlaşdırılmasına nail olmaq;

**3.** Mütəxəssislərin yenidən hazırlanması və həmçinin əvvəlki illərdə məzun olmuş tələbələrimizin bilik və bacarıqlarının artırılması üçün fakültənin əməkdaşlarının iştirakı ilə ayrı - ayrı sahələrdə fəaliyyət göstərən çeşidli müəssisə və təşkilatlar üçün treninq, konsaltinq və s. bu tipli xidmətlərin göstərilməsi yolu ilə professor-müəllim heyətinin əlavə maliyyə vəsaitləri əldə etmələrinin təmin edilməsi;

**4.** Mövcud akademik mübadilə proqramlarından tələbələrimizin və müəllimlərimizin maksimum faydalanmalarını təşkil edərək onların müxtəlif qabaqcıl ali məktəblərdə təhsil və ixtisasartırma proqramlarında iştiraklarına nail olmaq. Fakültənin professor - müəllim heyətinin ölkə daxilində və qabaqcıl xarici ölkələrdə treninqlərə cəlb olnmasının təşkili və beynəlxalq təcrübəyə uyğun olaraq ixtisasartırma və yenidən hazırlanma prosesinə (xüsusi ilə də də xarici ölkələrdə) cəlb olunmasının təmin edilməsinə çalışmaq;

**5.** Fakültənin inkişaf etmiş xarici ölkələrdəki qabaqcıl ali məktəblərin, elmi - tədqiqat institut və ya mərkəzlərinin eyni profilli fakültə və ya müvafiq strukturlarları ilə işbirliyinin qurulması, bilik və təcrübə mübadiləsinin, o cümlədən birgə həyata keçirilən elmi - tədqiqat işlərinin təşkilinə nail olmaqla professor - müəllim heyətinin mobilliyinin, beynəlxalq miqyasda əməkdaşlıq imkanlarının və inteqrasiyasının təmin edilməsinə çalışmaq;

**6.** Fakültənin strukturunun və onun idarə olunması sisteminin müasir tələblərə cavab verə biləcək şəkildə inkişaf etdirilməsi, fakültənin idarə olunmasında informasiya və kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə edilməsi.

**7.** Fakültənin mövcud ixtisasları sahəsində inkişaf etmiş ali məktəblərin eyni ixtisasları ilə ikili diplom layihələrinin tətbiqinə nail olunması;

**8.** Mövcud ixtisaslar sahəsində ayrı - ayrı sahələr üzrə ixtisaslaşmanın təmin edilməsi. Bu məqsədlə də:

Məktəbəqədər təlim və tərbiyə ixtisası sahəsində
"sosial pedaqoq", "dayə"
Korreksiyaedici təlim ixtisası sahəsində
İxtisaslaşma aparmaq

**9.** Fakültə bülleteninin hazırlanması;

**10.** Personal və tələbə məlumat sisteminin yaradılması;

**11.** Müxtəlif beynəlxalq layihələrdə fakültə əməkdaşlarının iştirakı.

## NORMATİV HÜQUQİ AKTLAR, QAYDALAR VƏ ƏSASNAMƏLƏR

**Publik hüquqi şəxs statusuna malik**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Məktəbəqədər təhsil fakültəsi haqqında**

**ƏSASNAMƏ**

1. Məktəbəqədər təhsil fakültəsi Azərbaycan Dövlət Pedaqoji Universitetinin (bundan sonra ADPU) tədris, elm və inzibati bölməsi olub, pedaqoji kadrların hazırlanması istiqamətində "Məktəbəqədər təhsil", "Təhsildə sosial - psixoloji xidmət", "Korreksiyaedici təlim" ixtisasları üzrə bakalavr, magistr, doktor hazırlanması işini həyata keçirir, eləcə də fakültədə tədris, tərbiyə və elmi işlərə (elmi-tədqiqat işlərinə) rəhbərlik edir.
2. Məktəbəqədər təhsil fakültəsində mütəxəssislər Boloniya prosesinin prinsiplərinə uyğun olaraq təlimin əyani forma üzrə həm istehsalatdan ayrılmaqla, həm də istehsalatdan ayrılmamaqla təhsil almaqla hazırlana bilərlər. Fakültədə bu təlim formalarından biri və ya bir neçəsi tətbiq oluna bilər.
3. Məktəbəqədər təhsil fakültəsində təlimin müxtəlif formaları və ya müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlanarsa, tələbələrin sayından asılı olaraq ayrı - ayrı təlim forması və ya ixtisaslar üzrə tələbələrin sayı 100 nəfərdən çox olduqda fakültənin daxilində uyğun şöbələr (əyani şöbə və ayrı-ayrı ixtisaslar üzrə şöbələr) yaradıla bilər.
4. Məktəbəqədər təhsil fakültəsi "Məktəbəqədər təhsil", "Təhsildə sosial - psixoloji xidmət", "Korreksiyaedici təlim" ixtisaslarının əsas ixtisas kafedraları olan "Məktəbəqədər təhsilin pedaqogikası", "Pedaqoji psixologiya", "Ümumi psixologiya" və "Xüsusi təhsil" kafedralarını özündə birləşdirir. Fakültə ADPU - nun Elmi Şurası tərəfindən yaradılır və bu haqda Azərbaycan Respublikası Təhsil Nazirliyinə yazılı məlumat verilir.
5. ADPU - da müəyyən ixtisas və ya istiqamətlər üzrə yeni fakültələr tələbələrin sayı 500 nəfərdən çox olduqda yaradıla bilər. Məktəbəqədər təhsil fakültəsinə mövcud qaydada seçilmiş və ya təyin olunmuş dekan rəhbərlik edir.
6. Məktəbəqədər təhsil fakültəsinin ştatında fakültə dekanının müavini vəzifəsi nəzərdə tutulur. Məktəbəqədər təhsil fakültəsində təhsil alan tələbələrin sayı 800 nəfərə çatdıqda ikinci və sonrakı hər 500 nəfər tələbə üçün əlavə bir dekan müavini ştat əlavə olunur.
7. Məktəbəqədər təhsil fakültəsi dekanı və dekanın müavinləri tutduqları vəzifə üçün müvafiq normativ əsasında əlavə əmək haqqı alırlar.
8. Məktəbəqədər təhsil fakültəsi dekanı:
   - Fakültədə tədris prosesinə, tərbiyə işinə və elmi tədqiqatların yerinə yetirilməsinə bilavasitə rəhbərlik edir;
   - Təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin edir;
   - Tələbələrin elmi, pedaqoji və istehsalat təcrübələrinin həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;
   - Fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçirilməsinə nəzarət edir;

- Tələbələrin müstəqil işlərinə nəzarəti təşkil edir və onların elmi fəaliyyətləri üçün şərait yaranmasını təmin edir;
- Tələbələrin imtahan və yoxlamalarının keçirilməsinə nəzarəti təşkil edir, akademik borcları ləğv etmək üçün qruplar yaradır. Bütün imtahan yoxlama prosesinin normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;
- Tələbələri semestrdən semestrə keçirmək, eləcə də tələbələr sırasından xaric etmək və təkrar kursda saxlamaq üçün rektora təqdimatlar verir;
- Tələbələrin buraxılış yekun Dövlət Attestasiyasına və buraxılış işlərinin müdafiəsinə buraxılmasına icazə verir;
- Fakültədə təhsil alan tələbələrə mövcud qaydaya uyğun şəkildə təqaüdü təqdim edir;
- Fakültədə çalışan professor-müəllim heyətinin ixtisas artırılması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;
- Fakültədə təhsil alan doktorantların təhsilinin lazımi səviyyədə təşkil olunmasını təmin edir. Onların attestasiyalarını keçirir;
- Fakültənin profilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodiki göstərişlərin və tələbələrə təqdim olunan mətnlərin hazırlanmasına göstərişlər verir və bu işə ümumi rəhbərlik edir;
- Kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;
- Ümumfakültə elmi - metodiki və elmi seminarların təşkil olunmasını təmin edir;
- Fakültədə hazırlanan ixtisaslar üzrə peşə yönümü işinin aparılmasını təşkil edir və onun lazımi səviyyədə olmasına məsuliyyət daşıyır;
- Ali təhsilin hər iki pilləsi, eləcə də magistratura və doktorantura üzrə fakültədə hazırlanması mümkün və zəruri olan ixtisasları və ixtisaslaşmaları müəyyənləşdirir, onlar illik perspektiv qəbul planları üzrə ali məktəbin rəhbərinə təkliflər təqdim edir;
- Fakültə Elmi Şurasına rəhbərlik edir;
- ADPU - da fakültənin fəaliyyəti ilə bağlı olan bütün tədbirlərdə, komissiyalarda, yığıncaq və şuralarda fakültəni təmsil edir;
- Fakültədə olan tədris köməkçi heyətin işinə nəzarət edir. Onların işə qəbulu və işdən azad olunması, eləcə də rəğbətləndirilməsi və cəzalandırılması üçün ADPU - nun rektoruna təqdimat verir;
- Ayrı-ayrı kafedraların tədris yükünün düzgünlüyünü yoxlayıb, onlara rəy verir.

Məktəbəqədər təhsil fakültəsinin dekan müavini ADPU - nun rektorunun əmri ilə təyin olunur. Dekan müavini fakültənin profilinə uyğun olaraq müvafiq ixtisasa malik olmalıdır.

Məktəbəqədər təhsil fakültəsinin fəaliyyətinə dair məsələlərə baxmaq üçün fakültədə mövcud qanunvericiliyə uyğun təşkil olunmuş Elmi Şura fəaliyyət göstərir.

9. Məktəbəqədər təhsil fakültəsi ADPU rektorunun təşəbbüsü ilə ADPU- nun Elmi Şurasının qərarı ilə ləğv oluna bilər. Bu qərar Azərbaycan Respublikasının Təhsil Naziri tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil Fakültəsinin Elmi Şurası haqqında ƏSASNAMƏ**

1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (bundan sonra ADPU) Məktəbəqədər təhsil fakültəsinə ümümi rəhbərlik dekanın başçılıq etdiyi seçkili orqan olan Məktəbəqədər təhsil fakültəsinin Elmi Şurası tərəfindən həyata keçirilir.
2. Məktəbəqədər təhsil fakültəsi ADPU Elmi Şurası rektorunun əmrinə əsasən 3 il müddətinə seçilir. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının sədri dekandır. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının vaxtından əvvəl yenidən seçilməsi onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə, həmçinin müstəsna hallarda ADPU rektorunun təqdimatına görə həyata keçirilə bilər.
3. Məktəbəqədər təhsil fakültəsinin Elmi Şurasının tərkibində tutduqları vəzifələrinə görə fakültə dekanı (sədr), dekan müavini (sədr müavini), fakültənin tərkibindəki bütün kafedraların müdirləri, fakültə Həmkarlar Təşkilatlarının (əməkdaşların və tələbələrin) nümayəndələri, fakültə Tələbə-Elmi Cəmiyyətinin və Tələbə Gənclər Təşkilatının sədrləri daxil olur.
4. Məktəbəqədər təhsil fakültəsinin Elmi Şurasının tərkibi ADPU rektoru tərəfindən təsdiq olunur.
5. Məktəbəqədər təhsil fakültəsinin Elmi Şurası:

- Fakültədə mütəxəssis hazırlığına, fakültənin elmi - tədqiqat fəaliyyətinə və kafedraların maddi - texniki təchizatı ilə bağlı məsələlərə baxır;
- Fakültənin professor - müəllim heyətinin vəzifələrini tutmaq üçün müsabiqələr keçirir;
- Tədris planlarını və proqramlarını, layihələri, kafedraların tədris - metodiki və elmi - tədqiqat işləri haqqında hesabatlarını dinləyib müzakirə edir;
- Elmi - tədqiqat və tərbiyə işlərinin planlarını, fakültənin professor - müəllim heyətinin ixtisaslarının artırılması planlarını müzakirə edir;
- Hər il dekanın hesabatını dinləyir;
- Tədris və istehsalat təcrübələrinin yekunlarını müzakirə edir;
- Fakültə heyətində olan dosent, baş müəllim və assisentlərin, aparıcı və elmi işçilərin seçkilərini aparır, onlara elmi ad verilməsi üçün ali təhsil müəssisəsinin - Elmi Şurası qarşısında məsələ qaldırır;
- Doktorluq dissertasiyası üzərində işləyən fəlsəfə doktorları olan müəllimlərdən elmi işçilər vəzifələrini tutmaq istəyən namizədləri müzakirə edir və müvafiq rəy verir;
- Həmin ADPU məzunlarından doktoranturaya və magistraturaya qəbul olunmaq üçün namizədlərə zəmanət verir, həmçinin doktorantların və magistrlərin fərdi planlarını və dissertasiyalarının mövzularını təsdiq edir,
- Əsasnamə Fakültə Elmi Şurasının “”12 “sentyabr” 2022-cu il tarixli iclasında ( 1№-li protokol) qəbul edilmişdir.
- Hər il onların attestasiyalarının materiallarına baxır;
- Tələbələrin elmi - tədqiqat işlərinin vəziyyətini və onun yaxşılaşdırılması tədbirlərini müzakirə edir;
- Fakültənin fəaliyyəti ilə bağlı olan digər məsələlərə baxır.

6. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının işi hər semestr üçün hazırlanan plan əsasında həyata keçirilir. Məktəbəqədər təhsil fakültəsinin Elmi Şurasının iş planı Şuranın iclasında müzakirədən sonra həyata keçirilir.
7. Elmi Şuranın qərarları fakültənin tədris və elmi işlərinin bütün məsələləri üzrə sadə səs çoxluğu əsasında açıq səsvermə, professor-müəllim heyətinin və dekanların seçilməsi zamanı isə mövcud qaydada gizli səsvermə yolu ilə qəbul edilir.
8. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasında hər hansı bir məsələyə baxılması üçün Şura üzvlərinin ümumi sayının 2/3-dən az olmayaraq iştirakı vacibdir.
9. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının açıq səsvermə yolu ilə qəbul olunmuş qərarları fakültənin dekanı tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.
10. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının qərarlarını və öz vəzifə borcunu sistematik olaraq yerinə yetirmədikdə, onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə dekana etimadsızlıq məsələsi Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının müzakirəsinə verilə bilər.
11. Məktəbəqədər təhsil fakültəsinin Elmi Şurasının iclasları protokollaşdırılır.
12. Protokollar sədr və elmi katib tərəfindən imzalanır.
13. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının sədri Şuranın qərarlarının icrasının müntəzəm yoxlanılmasını təşkil edir və Şuranın üzvlərinə qəbul olunmuş qərarların yerinə yetirilməsi barəsində məlumat verir.
14. Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının qərarı düzgün olmadıqda ADPU rektoru və ya Azərbaycan Respublikası Təhsil Naziri tərəfindən ləğv oluna bilər.

**Məktəbəqədər təhsil**

**Fakültəsi Elmi Şurasının 2024/2025-ci tədris ili üçün**

**İŞ PLANI**

| № | AY | GÜNDƏLİK |
|---|---|---|
| 1 | SENTYABR | 1.2024/2025-cü tədris ili imtahan sessiyasının nəticələri, 2024/2025-cü tədris ilinə hazırlığın vəziyyəti, yeni dərs ilində fakültə qarşısında duran əsas vəzifələr. (dos.N.Hüseynova)<br>2. 2024/2025-cü tədris ili üçün Fakültə Elmi Şuranın iş planının təsdiqi.<br>3. 2024/2025-cü tədris ili üçün dekanlığın illik iş planının təsdiqi.<br>4. 2024/2025-cü tədris ili üçün Akademik Təqvimin təsdiqi.<br>5. İş planlarının təsdiqi (kafedralar üzrə).<br>6.Dekan müavinin iş planının təsdiqi.<br>7.Tyutorların iş planının təsdiqi.<br>8.İxtisaslar üzrə illik işçi tədris planlarının təsdiqi<br>9.Cari məsələlər. |
| 2 | OKTYABR | 1.Tədrisin keyfiyyətinin yüksəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər haqqında<br>2.Fakültədə elmi-metodik işin vəziyyəti haqqında<br>3.Cari məsələlər |
| 3 | Noyabr | 1.Magistr dissertasiya mövzularının müzakirəsi və elmi rəhbərlərin təsdiq olunması<br>2. Fakültədə tədris prosesinin, tərbiyə işinin və elmi-tədqiqatların yerinə yetirilməsi işlərinin təşkili haqqında<br>3.Cari məsələlər |
| 4 | DEKABR | 1.2024/2025-cü il payız imtahan sessiyasına hazırlıq və imtahanların mütəşəkkil keçirilməsi üçün görüləcək işlər.<br>2.2024-cü ilin yekunu etibarı ilə ixtisas kafedralarında yerinə etirilən elmi-tədqiqat işlərinin müzakirəsinə dair ixtisas kafedralarının hesabatları (Kaf.müdirləri)<br>3.Elmi seminarların keçirilməsi və bu seminarlara tələbələrin daha da geniş cəlb edilməsi tədbirləri.<br>4. Fakültə üzrə özünütəhlil komissiyasının hesabatı<br>5.Cari məsələlər |
| 5 | YANVAR | 1.İxtisas kafedralarının yarımillik hesabatı<br>2.Fakültənin 2024/2025-cü tədris ilinin birinci hissəsi üçün iş planının icrasının vəziyyəti haqqında.<br>3.2024/2025-cü tədris ilində yerinə yetirilməsi planlaşdırılan elmi-tədqiqat mövzularının müzakirəsi<br>4.Tələibələrin pedaqoji və istehsalat təcrübələrinin həyata keçirilməsi işinin vəziyyəti haqqında<br>5.Cari məsələlər |

| | | |
|---|---|---|
| **6** | **FEVRAL** | 1.2024/2025-cü tədris ili payız imtahan sessiyasının yekunları və qarşıda duran vəzifələr.<br>2.Professor-müəllim heyətinin fərdi planlarında nəzərdə tutulan tədbirlərin icrasının vəziyyəti haqqında<br>3.2024/2025-cü tədris ilinin birinci semestri ərzində Məktəbəqədər Təhsil fakültəsininnin Tələbə Elmi Cəmiyyətinin işinin təşkili və qarşıda duran vəzifələr<br>4.Cari məsələlər. |
| **7** | **MART** | 1.Məktəbəqədər Təhsil fakültəsində tələbələrin tərbiyə işinin və müxtəlif sosial tədbirlərin təşkili məsələləri.<br>2.Kafedralarda elmi seminarların keçirilməsinin müzakirəsi<br>3.Cari məsələlər |
| **8** | **APREL** | 1.MTF -də mütəxəssis hazırlığının mövcud vəziyyəti və fakültədə hazırlanan ixtisaslar üzrə peşə yönümü işinin aparılmasının təşkili.<br>2.MTF-də kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsinin təşkili.<br>3. Cari məsələlər |
| **9** | **MAY** | 1.MTF-də yay imtahan sessiyasına hazırlıq və imtahanların mütəşəkkil keçirilməsi üçün görüləcək işlər<br>2.MTF-si üzrə Dövlət Yekun Buraxılış Attestasiya imtahanlarına və buraxılış işlərinin müdafiəsinə hazırlıq haqqında<br>3.MTF-si professor-müəllim heyətinin vəzifələrini tutmaq üçün müsabiqələrin təşkili məsələsi<br>4.Cari məsələlər |
| **10** | **İYUN** | 1. 2024/2025-cü tədris ilinin yekunları haqqda və yay imtahan sessiyasına hazırlıq<br>2.İxtisas kafedralarında dərs yüklərinin yerinə yetirilməsi vəziyyəti<br>3.Seçmə fənlərin kafedralar arasında bölgüsünün təsdiqi<br>4.Yeni tədris ilinə hazırlığın vəziyyəti<br>5.Cari məsələlər |

İş planı Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının 9 sentyabr 2024-cü il tarixli iclasının 1 nömrəli protokolu ilə təsdiq edilmişdir.

**Məktəbəqədər təhsil fakültəsi dekan:** **dos. N.T.Hüseynova**

## PSİXOLOJİ XİDMƏT MƏRKƏZİNİN ƏSASNAMƏSİ

Psixoloji Xidmət Mərkəzinin Əsasnaməsi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 19 may 2023 - cü il tarixli iclasının 7 saylı protokolu ilə təsdiq edilmişdir. 25 may 2023 - cü il tarixində Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru tarix elmləri rektoru, professor Cəfər Cəfərov Məmməd oğlu tərəfindən № 3/87 əsasən Psixoloji Xidmət Mərkəzi yaradılması haqqında əmr verilmişdir.

**Qərar:** Məktəbəqədər təhsil fakültəsinin nəzdində ictimai əsaslarla "Psixoloji Xidmət Mərkəzi" yaradılsın və Əsasnaməsi təsdiq edilsin (əlavə olunur)

**1.Ümumi müdəalar:**

1.1. Psixoloji Xidmət Mərkəzi öz fəaliyyətində Azərbaycan Respublikasının təhsil sistemi üzrə qanunverici aktları və müvafiq normativ sənədləri və həmin Əsasnaməni rəhbər tutur, habelə vətəndaşların fiziki inkişafının və sosial müdafiəsinin təmin olunması haqqında beynəlxalq və respublika aktları və qanunlarına əsaslanır.

1.2. Mövcud Əsasnamə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Psixoloji Xidmət Mərkəzinin təyinatı, əsas vəzifələrini, məqsədini, funksiyalarını, hüquq və iş fəaliyyətinin istiqamətlərini müəyyən edir.

1.3. Psixoloji Xidmət Mərkəzi psixoloji elmin müasir imkanlarından bəhrələnərək tələbələrin müsbət şəxsi inkişafını, onların öz qabiliyyətlərini, potensial imkanlarının həyata keçirilməsinin təmin olunmasını nəzərdə tutaraq ADPU - nun ümumi psixologiya kafedrasının bazasında yaradılmışdır.

1.4. Psixoloji Xidmət Mərkəzinin işçi tərkibi rəhbər və peşəkar psixoloqlardan ibarətdir.

1.5. Psixoloji Xidmət Mərkəzi aşağıda sadalanan psixoloji xidmətləri gerçəkləşdirir: məsləhət, korreksiya, diaqnostik - analitik, tədris - tərbiyəvi, profilaktik, mədəni - maarif, təşkilati - metodik.

1.6. Psixoloji Xidmət Mərkəzi tələbə və müəllimlərə, eləcə də digər müraciət edən şəxslərə psixoloji xidmətlər göstərir.

**2. Psixoloji Xidmət Mərkəzinin əsas vəzifələri və fəaliyyətinin məzmunu:**

2.1.1. Tələbələrin tam psixoloji inkişafını təmin etmək, universitetin tədris şöbələrinin psixoloji fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasını təmin etmək, universitet əməkdaşlarının professional fəaliyyətində psixoloji dəstəyi təmin etmək;

2.1.2. Tələbələrə yeni həyat və tədrs şəraitinə adaptasiyaya olmağa, yaranan psixi - emosional, intellektual və fiziki gərginliyin aradan qaldırmağa kömək etmək;

2.1.3. Gəncləri hərtərəfli şəxsi və intellektual inkişafa təşviq etmək, özünütərbiyə və özünüinkişaf keyfiyyətlərini onlarda formalaşdırmaq;

2.1.4. Tələbələrin psixoloji - pedaqoji aspektdə öyrənilməsi əsasında tədris və tərbiyə işlərində fərdi yanaşmanı təmin etmək.

2.2. Pedaqoji kollektivində pedaqoji - psixoloji proseslərin optimallaşdırılması üzrə psxoloji iş aparmaq, təklif və tövsiyyələr vermək.

2.3. ADPU - nun əməkdaşlarına universitetdə işə adaptasiya olunmasına psixoloji yardım etmək, məsləhət və psixokorreksiya işləri aparmaq.

2.4. Əməkdaş və rəhbərlərə xüsusi psixoloji bilik, psixoloji vəziyyətlərinə özünənəzarət üsullarını aşılamaq məqsədilə onları psixoloji - pedaqoji aspektdə təlimləndirmək, ümumi psixoloji mədəniyyətin artırılmasını təmin etmək.

**3.Psixoloji Xidmət Mərkəzinin əsas fəaliyyət növləri:**

**3.1. Psixoprofilaktik iş.** Müəllim və tələbələrdə psixoloji biliklərə tələbatın formalaşması, onlardan tələbələrlə iş zamanı istifadə etmək, tələbə və müəllimlərə intelekt və yaradıcı

potensialların təşəkkülünü reallaşdırmaqda psixoloji dəstək olmaq;
**3.2. Psixodiaqnostik iş.** Tələbənin ali məktəbdə tədrisə psixoloji hazırlığını müəyyən etmək, bütün tədris müddətində onların psixoloji - pedaqoji cəhətdən dərindən öyrənilməsi, fərdi xüsusiyyətlərinin aşkar olunması, təlim və inkişafında pozuntuları müəyyən etmək;
3.3. Psixoloji korreksiya işi. Psixoloqun tələbə şəxsiyyətinin inkişafına fəal - təsiri və təlim - tərbiyə prosesində qarşıya çıxan çətinliklərin, tələbənin diaqnostika zamanı psixi proseslərdə aşkar edilən nöqsanların aradan qaldırılması.
**3.4. Məsləhət işi.** Psixoloqun tələbələrə təlim - tərbiyə və inkişaf problemləri üzrə məsləhət verilməsi.
**4.Psixoloji Xidmət Mərkəzinin hüquqları.**
4.1. Universitetin konkret şəraitin nəzərə alaraq, psixoloji xidmət işinin prioritet istiqamətlərini müstəqil olaraq müəyyən etmək.
4.2. Müstəqil olaraq işin növünü, formalarını, üsullarını həyata keçirmə yollarını və ardıcıllığı formalaşdırmaq.
4.3. Psixoloji xidmət mərkəzinin qarşısına qoyduğu vəzifələri yerinə yetirmək üçün universitetin struktur bölmələrindən zəruri məlumatlar almaq.
4.4. Universitetdə inkişaf, təlim və tərbiyə məsələlərinə dair keçirilən tədbirlərin təşkilatçısı və iştirakçısı olmaq.
4.5. Universitet rəhbərliyinə psixoloji xidmətin fəaliyyəti üçün zəruri təşkilatı və maddi - texniki dəstək üçün müraciət etmək, eləcə də vəzifə hüquqlarının həyata keçirməkdə yardım almaq.
5. Cavabdehlik.
5.1. Psixoloji Xidmət Mərkəzi öz fəaliyyətində Azərbaycan Respublikasının Təhsil Qanunu, Azırbaycan Respublikasının təhsil sahəsi üzrə qanunverici aktları və müvafiq normativ sənədləri, Universitetin nizamnaməsini, daxili qaydaları və hazırki Əsasnaməsini rəhbər tutur.
5.2. Psixoloqun apardığı işin gedişində alınan informasiya konfedensial xarakter daşıyır və informasiya yayıla bilməz.
5.3. Əsasnamədə nəzərdə tutulmuş funksiyaların düzgün və vaxtında həyata keçirilməsinə görə psixoloji xidmətin rəhbəri və işçiləri cavabdehdir.
**6. Psixoloji xidmət mərkəzinin işinin təşkili.**
6.1. Psixoloq psixoloji məlumatlar bankının saxlanılması və ötürülməsinə görə şəxsən məsuliyyət daşıyır.
6.2. Əldə edilmiş psixoloji diaqnostik, hesabat materialların saxlama müddəti 3 ildir.
6.3. Əsasnaməyə əsasən psixoloji xidmət mərkəzin fəaliyyətinin təşkili üçün aşağıda sadalananlar olmalıdır:
6.3.1. ADPU - nun Məktəbəqədər təhsil fakültəsinin və Elmi Şurasının iclasının müzakirə və təsdiq edilən, psixoloqun işini tənzimləyən normativ - hüquqi sənədlər, loqotip, əsasnamə:
6.3.2. Psixoloji işlərin təşkili və aparılması üzrə elmi - metodiki materiallar:
6.3.3. İllik iş planı;
6.3.4. Hesabat və protokol;
6.3.5. Psixoloji məlumat bankı;
6.3.6. Psixoloji işin qeydiyyat jurnalı.
**7. Psixoloji Xidmət Mərkəzinin Universitetin digər şöbə və qurumları ilə qarşılıqlı əlaqəsi.**
7.1. Psixoloji xidmət mərkəzi tələbələrin şəxsi inkişaf, psixoloji müdafiəsini təmin etmək, təlim fəaliyyəti üçün əlverişli sosial - psixoloji və sosial - pedaqoji şərait yaratmaq məqsədilə

Universitetin digər şöbə və qurumları ilə qarşılıqlı fəaliyyətini nəzərdə tutur.

**8. Pedaqoji Xidmət Mərkəzinin maddi - texniki bazası.**

8.1. Sosial - Psixoloji xidmət mərkəzinin psixoloqun müxtəlif növ işlər (profilaktika, məsləhət, diaqnostika, inkişafetdirici korreksiya) aparması üçün zəruri olan otağı (psixoloqun kabineti) təchiz etmək;

8.2. İnternet bağlantısı ilə xidməti komputer

8.3. Printer, skaner

**Publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsinin tərkibində yaradılmış PSİXOLOJİ - PEDAQOJİ XİDMƏT LABORATORİYASI haqqında**

**ƏSASNAMƏ**

27 fevral 2024 - cü il tarixində isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru tarix elmləri rektoru, professor Cəfər Cəfərov Məmməd oğlu tərəfindən 5 saylı "Psixoloji - pedaqoji xidmət laboratoriyası" Əsasnaməsinin protokolu təsdiq edilmişdir. 7 mart 2024 - cü il tarixində Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru tarix elmləri rektoru, professor Cəfər Cəfərov Məmməd oğlu tərəfindən № 3/44 əsasən Psixoloji - pedaqoji xidmət laboratoriyası yaradılması haqqında əmr verilmişdir.

**1. Ümumi müddəalar**

1.1. Psixoloji - pedaqoji xidmət laboratoriyası (bundan sonra Laboratoriya) Publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin (bundan sonra Universitet) Məktəbəqədər təhsil fakültəsinin tərkibində yaradılır.

1.2. Laboratoriya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ hüquqi aktlarını, Publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Nizamnaməsini və Məktəbəqədər təhsil fakültəsinin Əsasnaməsini ilə birlikdə bu əsasnaməni rəhbər tutur.

1.3. Laboratoriya pedaqoji kadrların hazırlanması istiqamətində Məktəbəqədər təhsil fakültəsinin Korreksiyaedici təlim, Təhsildə sosial-psixoloji xidmət və Məktəbəqədər təhsil ixtisas tələbələrinin akademik biliklərinin praktik tərəfdən möhkəmləndirməsini tənzimləyir.

1.4. Laboratoriya tipik (inkişafında kənaraçıxmaları olmayan şəxslər) və atipik (sağlamlıq imkanları məhdud şəxslər) sadə əmək vərdişlərini formalaşdırmaq, çatışmazlıqların korreksiyası və fərdi təhsil proqramları üzrə məşğələləri təşkil etməkdə, onların valideynlərinə psixoloji yardımın göstərilməsində; tipik inkişaf etmiş şəxslərin psixoloji problemlərini aradan qaldırmaqda müxtəlif profilli reabilitasiyaların fəaliyyətini təşkil edir.

**2. Laboratoriyanın fəaliyyətinin əsas istiqamətləri**

2.1. Tipik (inkişafında kənaraçıxmaları olmayan şəxslər) və atipik (sağlamlıq imkanları məhdud şəxslərin:

- eşitmə pozuntusu;
- dayaq-hərəkət aparatının funksiyalarının pozuntuları;
- intellektual pozuntuları olan (əqli potensialı geri qalanlar);
- emosional-iradi sferasında çatışmazlığı olanlar;
- psixi inkişaf ləngiməsi olanları;
- mürəkkəb çatışmazlıqları olanların hər biri ilə əlaqəli profilə uyğun reabilitasiya işləri aparır.

2.2. Tipik inkişaf etmiş şəxslərin qrup və fərdi konsultasiyalar daxilində özünü dərketməsi, adekvat özünü qiymətləndirməsi, sosial vəziyyətə uyğunlaşması, koqnitiv və emosional sferasında olan problemlərin aradan qaldırılması üzrə iş aparılır;
2.3. Tipik və atipik inkişaf edən şəxslərin reabilitasiya potensialını müəyyən edir;
2.4. Müəyyən olunmuş problem üzrə korreksiya işi aparılır;
2.5. Reabilitasiya və inkişafetdirici işlər prosesində tələbələr iştirak edir (valideynin razılığı ilə).

### 3. Laboratoriya xidmətinin və məşğələlərinin təşkili qaydaları

3.1. Konsultasiya, reabilitasiya, korreksiyaedici və inkişafetdirici tədbirlər avadanlıq və didaktik materiallarla təchiz edilmiş kabinetində keçirilir.
3.2. Laboratoriyada məşğələlər fərdi və qrup təlim proqramlarına əsasən, hər qrupda 10, mürəkkəb kompleks olanlar üçün 6 nəfərdən çox olmamaqla təşkil edilir.
3.3. Məktəbəqədər təhsil fakültəsi tərəfindən seçilmiş fərdi və qrup reabilitasiya proqramlarına əsasən sağlamlıq imkanları məhdud şəxslərin sosial və peşə reabilitasiyası aparılır;
3.4. Laboratoriyada məşğələlərin hesabatı xüsusi jurnallarda qeyd edilir. Qeyd edilir: soyadı, adı, doğulduğu il, reabilitasiya mərkəzlərinə daxil olduğu tarix, məşğələlərin profili, başlanması, qurtarması və növbəti saatlar;
3.5. Laboratoriyaya müraciət edən şəxs ümum

### 5. Laboratoriyanın strukturu və idarə olunması

5.1. Laboratoriya strukturunu, ştat cədvəlini və xərclər smetasını ADPU - nun Elmi Şurası təsdiq edir.
5.2. Laboratoriya strukturuna mütəxəssis və laborant daxildir.
5.3. Laboratoriyanın idarə edilməsi Məktəbəqədər təhsil fakültəsinin rəhbərliyi tərəfindən həyata keçirilir.
5.4. Fəaliyyətindən asılı olaraq, reabilitasiya mərkəzinin strukturunda mövcud olan kabinetlər :

- müstəqil iş fəaliyyətinin qiymətləndirilməsi kabineti;
- loqopedik xidmət kabineti;
- defektoloji (korreksiya pedaqoqu) xidmət kabineti;
- psixoloji xidmət kabineti;
- müalicəvi idman və fiziki tərbiyə kabineti (sensor inteqrasiya);
- peşəyönümü kabineti;
- tərbiyə kabineti.

**Məktəbəqədər təhsil fakültəsi**
**2024/2025-cü tədris üçün**
**Akademik təqvim**
**Tədris ilinin birinci semestri**
**(Payız semestri)**
**15 sentyabr 2024-ci il -**
**31 yanvar 2025-cü il**
**Tədris ilinin ikinci yarısı**
**(Yaz semestri)**
**(16 fevral – 28 iyun)**
**2025-ci il**

| | |
|---|---|
| 02 - 16 sentyabr | Məktəbəqədər təhsil Fakültəsinə (MTF) dövlət sifarişi əsasında bakalavr pilləsinin I tədris ilinə qəbul olmuş və 2024-2025-cü tədris ilinin yaz semestrini müvəffəqiyyətlə başa vuran yuxarı tədris ili tələbələrinin müvafiq təqaüd almaları üçün təqaüd komissiyasının təşkili və protokolun verilməsi. |
| 10 - 20 sentyabr | Açıq dərs cədvəllərinin tərtibi və MPKF-si dekanlığına təhvil verilməsi |
| 5 -14 sentyabradək | Tələbə biletlərinin hazırlanıb paylanması |
| 16 - 23 sentyabradək | I tədris ilinə qəbul olan tələbələrə orentasiya və adaptasiya toplantılarının təşkili |
| 23 - 30 sentyabradək | Kredit sistemi ilə tədrisin təşkili qaydalarının I tədris ili tələbələrinə çatdırılması |
| 01 oktyabr - 01 noyabr | Bakalavr buraxılış işi mövzularının müzakirəsi və elmi rəhbərlərin təsdiq olunması |
| Oktyabr - noyabr | Məzunların diploma əlavələrinin hazırlanması və təsdiqi |
| Hər beş həftənin | Kollokviumların keçirilməsi |
| Noyabr | Magistr dissertasiya mövzularının müzakirəsi və elmi rəhbərlərin təsdiq olunması |
| 25 noyabradək | İmtahan biletlərinin və testlərin hazırlanması və təsdiqi |

## Tədris ilinin ikinci yarısı (Yaz semestri) (16 fevral – 28 iyun) 2025-cü il

| | |
|---|---|
| Noyabr - dekabr | Doktoranturada təhsil alan doktorantların attestassiyasının keçirilməsi |
| 20 dekabradək | Əyani şöbədə təhsil alan tələbələrin kurs işlərinin qəbulu və qiymətləndirilməsi |
| 20 dekabradək | İmtahan koordinatorlarının təqdimatlarının verilməsi |
| 25 dekabradək | Müəllimlərin elmi-tədqiqat işləri haqqında kafedra müdirlərinin hesabatının verilməsi |
| Oktyabr-dekabr | Təkrar buraxılış yekun dövlət attestasiyasının keçirilməsi |
| 25 dekaradək | Tələbələrə verilmiş sərbəst işlərin qiymətləndirilməsi |
| 30 dekabr - 2 fevral | Qış imtahan sessiyası |
| 03 - 30 yanvar | Magistrlərin attestasiyası |
| İmtahan günü | İmtahan nəticələrinin yoxlanılması və Qeydiyyat bölməsinə təhvil verilməsi |
| 21 - 31 yanvar | ADPU ilə pedaqoji təcrübə keçiləcək müəssisələr arasında əlaqə yaradılması |
| 2 -16 fevral | Qış tətili |
| 03 - 10 fevral | Qış imtahan sessiyasının nəticələrinə əsasən tələbələrin müvafiq təqaüd ala bilmələri üçün təqdimatın verilməsi. |
| 03 - 10 fevral | Payız imtahan sessiyasının nəticələrinə əsasən tələbələrin müvafiq təqaüd ala bilmələri üçün təqaüdüd təqdimat və müvafq protokolun verilməsi |
| 03 - 10 fevral | Tələbələrin fərdi tədris planlarında dəyişikliklərin edilməsi |
| 17 fevral - 30 may | Əyani şöbədə yaz semestri |
| 03 -10 fevral | Əyani təhsilalma forması üzrə dərs cədvəllərinin hazırlanması və təsdiqi |
| 10 - 14 fevral | Açıq dərslərin cədvəllərinin tərtibi və MPKF-si dekanlığına təhvil verilməsi |
| 17 fevral | Əyani təhsilalma forması üzrə başlanğıc pedaqoji təcrübə konfransının keçirilməsi |
| Hər beş həftənin sonunda | Kollokviumların keçirilməsi |
| 06 apreledək | İmtahanlarda iştirak edəcək koordinatorlar haqqında təqdimatı təqdim etmək |
| 30 apreledək | Müəllimlərin tədris-metodiki işləri haqqında kafedra müdirlərinin hesabatının verilməsi |
| 01 mayadək | İmtahan biletlərinin və testlərin hazırlanması və təsdiqi |
| 01 mayadək | İmtahan cədvəllərinin hazırlanması və təsdiqi |
| 20 mayadək | Əyani şöbədə təhsil alan tələbələrin kurs işlərinin qəbulu və qiymətləndirilməsi |
| 20 mayadək | Yaz imtahan sessiyasını keçirəcək Komissiyasının yaradılması |
| 25 mayadək | Tələbələrə verilmiş sərbəst işlərin qiymətləndirilməsi |
| 29 mayadək | Yaz imtahanına salınacaq imtahan suallarının kafedralardan yığılması, yoxlanması |
| May - iyun | İmtahanqabağı məsləhət saatlarının cədvəlinin hazırlanması |

## Qeyri - iş günləri

| | |
|---|---|
| **9 Noyabr** | **- Bayraq günü** |
| **31 Dekabr** | **- Dünya Azərbaycanlılarının Həmrəylik günü** |
| **01-05 Yanvar** | **-Yeni il bayramı** |
| **20 Yanvar** | **- Ümumxalq matəm günü** |
| **08 Mart** | **- Beynəlxalq Qadınlar günü** |
| **20-24 Mart** | **- Novruz bayramı** |
| **30-31 Mart** | **- Ramazan bayramı** |
| **09 May** | **- Faşizm üzərində qələbə günü** |
| **28 May** | **- Respublika günü** |
| **6-7 iyun** | **- Qurban bayramı** |
| **15 İyun** | **- Milli Qurtuluş günü** |
| **26 İyun** | **- Milli Silahlı Qüvvələr gün** |

MƏKTƏBƏQƏDƏR TƏHSİL, PSİXOLOJİ XİDMƏT VƏ KORREKSİYAEDİCİ TƏLİM FAKÜLTƏSİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ